

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## QUBADLI: 30 ilin o başı, bu başı...




5


# SƏS

№ 156 (6839)

31 avqust 2023-cü il.
Qiymәti 60 qәpik


# Sosial rifaha xidmət edən islahatlar



2

**PREZİDENT İLHAM ƏLİYEV: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır"**

# An yaxınlaşır!

***Azərbaycan Qarabağın bütün ərazilərinə tam nəzarəti bərqərar edəcək***



12

## Ərdoğan: "Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır"



3

## Multikulturalizmin unikal məkanı - Azərbaycan



9

## "Hazırda Ağdamda üzüm bağları əvəzinə, mina tarlaları görünməkdədir"



SB.BY

Как сегодня Азербайджан восстанавливает территории Карабаха. Эксклюзивный репортаж

Карабах. Время жить и строить

Скоростные трассы, аэропорты, умные поселки, зеленая энергетика — Азербайджанская Республика на территории многострадального Карабаха не просто активно реализует программ «Большое возвращение», а стремится сделать из региона самую передовую часть страны. По приглашению азербайджанской стороны журналисты «СБ. Беларусь сегодня» посетили эти районы, чтобы увидеть, как осуществляется один из самых масштабных на сегодняшний день послевоенных проектов.

(Окончание. Начало в номере за 25 августа.)



3

## Atatürkün Çiğiltəpədə unutmadığı intihar



8

## Azad olunmuş ərazilərdə turizmin inkişafı üçün hansı addımlar atılmalıdır?



16

# Sosial rifaha xidmət edən islahatlar

## PREZİDENT İLHAM ƏLİYEV: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır"

**Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilən sosialyönümlü siyasət öz yüksək inkişaf mərhələsini yaşayır. Artıq Azərbaycan sosial islahatlar baxımından bir çox ölkələrə layiqli nümunədir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin yanvar ayının 5-də ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində əlavə tədbirləri özündə ehtiva edir.**



Bəli, iqtisadiyyatın sürətli inkişafı, möhkəm ictimai-siyasi sabitliyin təmin olunması, vətəndaşların sosial rifahının yüksəldilməsi ölkəmizdə daxili siyasətin mühüm uğurlu göstəricilərindir. Həyata keçirilən dövlət proqramlarının, çoxşaxəli islahatların real nəticəsi olaraq ölkə iqtisadiyyatı, xüsusən qeyri-neft sektoru sürətli inkişaf mərhələsinə qədəm qoyub, bütün kateqoriyalardan olan vətəndaşların əməkhaqları bir neçə dəfə artıb, iqtisadiyyata sərmayə yatırımı yüksəlib. Ölkənin iqtisadi potensialının tam hərəkətə gətirilməsinə nail olan Prezident İlham Əliyev Azərbaycanın gələcəyinin, ölkənin qüdrətinin məhz iqtisadiyyatdan asılı olduğunu hər zaman qeyd edir. Ölkəmizi yüksək nailiyyətlərə aparan iqtisadi inkişaf strategiyasını uğurla reallaşdıran dövlət başçısının fəaliyyətində sosial məsələlərə diqqət prioritet istiqamət təşkil edir. İldənilə inkişafda olan Azərbaycan iqtisadiyyatı bütün parametrləri ilə yanaşı, həm də xalqın sosial rifahının, güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunmaqdadır.





Çünki ölkə iqtisadiyyatının ardıcıl və dinamik inkişafı, həyata keçirilən köklü dəyişikliklər iqtisadi sabitliyi təmin etməklə bərabər, dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə geniş yol açıb, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün möhkəm zəmin yaradıb. Bu baxımdan əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, bütövlükdə bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətləri sayılır. Müstəqil dövlətçiliyimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin siyasi idarəçilik məktəbinin layiqli davamçısı olan İlham Əliyev 2003-cü ilin oktyabrında keçirilən ilk prezidentlik inaqurasiyasında ”Mən hər bir azərbaycanlının prezidenti olacağam” söylədi və arxasında böyük məna və məsuliyyət yükü olan bu fikirləri öz prezidentlik fəaliyyətində daim təsdiq etdi, əmələ çevirdi və dövlət idarəçiliyində bir meyar səviyyəsinə yüksəltdi.

Cənab İlham Əliyev Prezidenti olduğu hər bir vətəndaşın və bütövlükdə Azərbaycan xalqının əmin-amanlıq şəraitində, güvənli maddi təminat və sosial rifah içərisində yaşamağını istəyir və bu istəyi reallığa çevirmək üçün ən mütərəqqi proqramlar qəbul edir, ən mütərəqqi qərarlar, fərman və sərəncamlar verir, qanunlar imzalayır. Onun sosial siyasəti iki klassik prinsipə - sosial ədalət və sosial rifah prinsiplərinə əsaslanır.Prezidentin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması ölkəmizdə milli iqtisadiyyatın dinamik artımı şəraitində sosial inkişafın davamlı xarakter almasına, sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişlənməsinə, sosial sahədə vətəndaş rifahı və məmnunluğuna yönəlik mühüm irəliləyişlərə, sosial ödənişlərdə orta hesabla 10 -15 dəfə artımlara imkan verib.”Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”,-deyə bəyan edən dövlət başçısının tapşırıqları əsasında xüsusilə son illər aparılan inqilabi sosial islahatlar ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlərin əldə olunmasını təmin edib.

### BU SOSİAL İSLAHATLAR ZƏFƏR DÖVRÜNÜ YAŞAYAN QALİB AZƏRBAYCANDA BÖYÜK QAYIDIŞ PROQRAMININ REALLAŞDIRILDIĞI BİR DÖVRDƏ HƏYATA KEÇİRİLİR

Zəfər dövrünü yaşayan qalib Azərbaycanda müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial islahatlar əhalinin bu sahədə müdafiəsinin gücləndirilməsi və onun rifahının yaxşılaşdırılması məqsədi ilə nəzərdə tutulan tədbirləri uğurla reallaşdırır. Xüsusilə də son illərdə dünyada baş verən bahalaşma, qiymət artımlarının qlobal iqtisadiyyata fəal şəkildə qoşulmuş Azərbaycana da təsirsiz ötüşmədiyi nəzərə alınmaqla respublika əhalisinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının bu təsirlərdən qorunması üçün zəruri və məqsədyönlü addımlar atılır. Bu sosial islahatlar Zəfər dövrünü yaşayan qalib Azərbaycanda Böyük Qayıdış Proqramının realllaşdırıldığı bir dövrdə həyata keçirilir.

Xüsusilə də, dövlət başçısının göstərişi ilə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı çox geniş tədbirləri əhatə edən sosial dəstək paketi həmin insanların sosial təminat hüquqlarının operativ reallaşdırılması, onların sosial-psixoloji dəstəklə, reabilitasiya xidmətləri və vasitələri, birdəfəlik maddi yardımla təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluq məsələlərinin operativ həlli, onlar üçün kiçik biznes imkanlarının yaradılması və s. kimi dəstək istiqamətlərini əhatə edir.

Sosial dəstək tədbirləri 121 min şəxsi əhatə edib, onlara dəstəkyönümlü 260 min xidmət göstərilib. O cümlədən 102 min şəxsə 114 min sosial ödəniş təyin olunub, 16,7 min şəxs üzrə birdəfəlik ödəmə, 2,8 min şəxsə sığorta ödənişi verilib, təqaüd və müavinətlər orta hesabla 60 faiz artırılıb. 11 min şəxsə 36 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. 1 766 şəxs 30 min reabilitasiya vasitəsi, 379 şəxs 394 son nəsil müasir protezlə təmin olunub. 16,4 min şəxs aktiv məşğulluq, o cümlədən 9,4 min şəxs özünüməşğulluq proqramlarına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində 70 minə yaxın şəxsə xidmətlər göstərilib.

### ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL TƏMİNATI DA YAXŞILAŞIR. BİZ DAİM ONLARI DİQQƏT MƏRKƏZİNDƏ SAXLAYACAĞIQ

Prezident İlham Əliyevin uğurlu sosial siyasətində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması mühüm yer tutur. ”Şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq”,- qeyd edən Prezident İlham Əliyevin imzaladığı sənədlər nəticəsində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial ödənişləri təkcə son 4 ildə 2 dəfədən çox artırılıb. Eyni zamanda, bu dövrdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Postmüharibə dövründə onlara 4300, ümumilikdə ötən dövrdə 13,1 min mənzil və fərdi ev təqdim edilib. 2022-ci il üzrə də 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq 1300-ü təqdim edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin rifahına yönələn proqramlardan biri də onların avtomobillə təminatıdır. Postmüharibə dövründə bu istiqamətdə də tədbirlər geniş miqyas alıb, eyni zamanda, 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. 44 günlük Vətən müharibəsindən sonra 304, ümumən ötən dövrdə 7500-dən artıq avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.Dövlət başçısının şəhid ailələri və müharibə iştirakçılarına diqqət və qayğısının daha bir təzahürü kimi, son illər həmin kateqoriyalarla bağlı növbəti sosial dəstək proqramları icra olunub: 2019-2020-ci illərdə 1997-ci il avqustun 2-dək olan dövr üzrə şəhid hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri birdəfəlik ödəmə ilə təmin edilib.

Bir sözlə, bütün bu addımlar Prezident İlham Əliyevin ardıcıllıqla həyata keçirdiyi güclü sosial siyasətin əsasında məhz vətəndaş amilinin, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Azərbaycan özünün dərinməzmunlu sosial siyasətinə bundan sonra da sadiq qalacaq. Çıxışlarında da bunu nəzərə çatdıran Prezident İlham Əliyev bildirir: ”Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır”. Beləliklə, Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişafına xidmət edən sərəncamları, fərman və qərarları reallaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir. Və xalqımız inanır ki, bu gün tarixi qələbəmizi reallaşdıran Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial islahatlar proqramı qarşıdakı dövrdə də əmək, məşğulluq, sosial müdafiə sahələrində yeni mühüm irəliləyişlərə nail olunmasını təmin edəcək, dövlətimizi daha firavan gələcəyə aparacaq.

***RƏFİQƏ KAMALQIZI***

# “Hazırda Ağdamda üzüm bağları əvəzinə, mina tarlaları görünməkdədir”

## "Belarus Seqodnya" qəzetində Azərbaycanın işğaldan azad olunan ərazilərindən reportajlar dərc edilib


SB.BY

Как сегодня Азербайджан восстанавливает территории Карабаха. Эксклюзивный репортаж

Карабах. Время жить и строить

Скоростные трассы, аэропорты, умные поселки, зеленая энергетика — Азербайджанская Республика на территории многострадального Карабаха не просто активно реализует программ «Большое возвращение», а стремится сделать из региона самую передовую часть страны. По приглашению азербайджанской стороны журналисты «СБ. Беларусь сегодня» посетили эти районы, чтобы увидеть, как осуществляется один из самых масштабных на сегодняшний день послевоенных проектов.

(Окончание. Начало в номере за 25 августа.)



**Belarusun nüfuzlu mətbu orqanı olan ”Belarus Seqodnya” qəzetində Azərbaycanın işğaldan azad olunan ərazilərindən xüsusi reportajlar dərc edilib. ”Bu gün Azərbaycan Qarabağ ərazilərini necə bərpa edir” sərlövhəli reportajlarda Belarusdan olan jurnalist Şuşa, Laçın, Zəngilan, Ağdam, Füzuli və Qarabağın digər bölgələrində gördüklərini qələmə alıb.**

Məqalədə qeyd edilir ki, Şuşa Azərbaycan üçün xüsusi yerdir. Ölkənin mənəvi mərkəzi hesab edilən bu şəhərdə Azərbaycanın tanınmış mədəniyyət xadimləri yaşayıblar. Onların arasında tanınmış şair və dövlət xadimi Molla Pənah Vaqif də var. Onun 1980-ci illərdə Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə tikilmiş məqbərəsi hərbi əməliyyatlar zamanı dağıdılıb. Lakin bu gün o, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü sayəsində yenidən bərpa olunub. Yenidən bərpa edilən memorialın açılışı Azərbaycan dövlət başçısının bilavasitə iştirakı ilə baş tutub. Burada 960 şagird yerlik yeni məktəb, xəstəxana tikilir, məscid bərpa olunub. Şuşaya ilk sakinlərin ilin sonunda köçürülməsi gözlənilir. Hazırda Şuşada keçmiş məcburi köçkünlər üçün 450 mənzillik 23 ev tikir. Köçürülmənin birinci mərhələ-


SB.BY

Как сегодня Азербайджан восстанавливает территории Карабаха. Эксклюзивный репортаж

Карабах. Время жить и строить

Скоростные трассы, аэропорты, умные поселки, зеленая энергетика — Азербайджанская Республика на территории многострадального Карабаха не просто активно реализует программ «Большое возвращение», а стремится сделать из региона самую передовую часть страны. По приглашению азербайджанской стороны журналисты «СБ. Беларусь сегодня» посетили эти районы, чтобы увидеть, как осуществляется один из самых масштабных на сегодняшний день послевоенных проектов.

Любая война рано или поздно заканчивается. После наступает время возрождения. В случае с Карабахом речь идет даже не о восстановлении, а скорее о возведении нового на месте безвозвратно утерянного. Земля, искореженная военными действиями, требует особого внимания и заботы.



sində 1500 sakinin gəlişi nəzərdə tutulub.

Belaruslu jurnalist daha sonra yazır ki, Ermənistanla sərhəddə yerləşən Laçın rayonunda da tikinti işləri fəal şəkildə aparılır, artıq yerli sakinlərin bir hissəsi şəhərə köçürülüb. Reportajda Laçına qayıdan azərbaycanlıların fikirlərinə də yer verilib. Laçınlılara yeni evlərin açarlarının verildiyi vurğulanıb.

Zəngilanda ”Ağıllı kənd”dən yazan jurnalist bildirir ki, Azərbaycan hökumətinin planlarına görə, Qarabağ yaşıl enerji və qabaqcıl texnologiyalar zonasına çevrilməlidir. ”Bunun praktikada necə həyata keçirildiyini görmək üçün Zəngilan rayonunun kəndlərindən birində olduq. Bölgənin innovativ kənd təsərrüfatı mərkəzinə çevriləcəyi gözlənilir. Yeniliklərdən biri də kəndin kənarındakı əkin sahələrində və bağlarda suvarma sistemlərinin quraşdırılmasıdır. Orada kənd təsərrüfatı zərərvericilərinə qarşı mübarizə stansiyaları da yaradılıb. Qəsəbənin unikallığı ondan ibarətdir ki, onun enerji təminatı günəş, külək enerjisi və su elektrik stansiyaları hesabına həyata keçiriləcək”, - deyə məqalədə qeyd olunur.

Ağdamdan reportaj hazırlayarkən əcnəbi jurnalist ərazilərin kütləvi minalanmasının yenidənqurma və bərpa işlərinin sürətlə həyata keçirilməsinə ciddi maneə yaratdığını vurğulayır. Bildirir ki, partlamamış hərbi sursat və minalarla çirkəndirilmiş ərazilər müharibənin əks-sədasıdır və bu gün bu ərazilərdə yenidənqurma prosesinə ciddi çətinlik yaradır. Bölgəyə daxil olarkən qısa təlimatdan keçirik: yolları tərk etməyin, şübhəli əşyalara toxunmayın və marşrutdan kənara çıxmayın.

”Sovet İttifaqında bu bölgə üzümləri və münbit torpaqları ilə tanınırdı. Yerli sakinlər əmindirlər ki, hər bir toxum mütləq məhsul olacaq. Təəssüf ki, hazırda Ağdamda üzüm bağları əvəzinə, mina tarlaları görünməkdədir”.

Füzulidən reportaj hazırlayan belaruslu jurnalist yazır ki, Qarabağın dirçəlişinə aparan ”Böyük Qayıdış” proqramının əsas hissələrindən biri də yol infrastrukturunun yaradılmasıdır. Bu məsələdə Azərbaycan bütün gücü ilə çalışır. Füzuli Beynəlxalq Hava Limanı cəmi yeddi aya tikilib.

Məqalənin sonunda Azərbaycanın Belarusdakı səfiri Ülvi Baxşəliyevə istinadla qeyd edilir ki, Azərbaycan Belarusun da Qarabağ ərazilərinin bərpasına töhfə verəcəyini gözləyir. ”Azərbaycan Belarusun aqroşəhərlərin salınması təcrübəsində maraqlıdır. Qarabağda kəndlərin salınmasında bu təcrübəyə tələbat var”, - deyə səfir əlavə edib.



# Ərdoğan: ”Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır”

**NATO, BRİKS və Türk Dövlətləri Təşkilatının hazırkı geosiyasi şəraitdə beynəlxalq çəkisi artır. AZƏRTAC xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Hərbi Akademiyada çıxışı zamanı deyib.**

”Beynəlxalq siyasətdə yeni kartlar müzakirə edildikdə, əməkdaşlıq üçün yeni variantların axtarışı ön plana çıxır. NATO, BRİKS, Türk Dövlətləri Təşkilatı kimi birliklər çoxtərəfli əməkdaşlıq platforması kimi beynəlxalq siyasətdə çəkisini artırır. Dünyada pandemiya ilə başlayan və Ukraynada baş verən münaqişə ilə kəskinləşən böhran qlobal miqyasda iqtisadiyyata və siyasətə mənfi təsir göstərir. Bütün ölkələr, o cümlədən inkişaf etmiş ölkələr son 60-70 ildə ən yüksək inflyasiya templəri ilə üzləşiblər. Türkiyə lideri təhlükəsizlik riskləri fonunda müdafiə sənayesinə xərclərin hər yerdə artdığını da vurğulayıb: ”Hər kəs müasir, nizam-intizamlı və çəkindirici ordunun olmasının nə qədər vacib olduğunu anlayır”.

# Türkiyəli ekspert: ”Ermənistan sülh prosesini uzatmaqla, özünə əlavə çətinliklər yaradır”

**Ermənistanda bəzi siyasətbazlar təkcə Cənubi Qafqaz regionunda baş verən dəyişiklikləri ciddi qəbul etmir və proseslərə düzgün qiymət vermək iqtidarında deyillər, həm də qonşu dövlətlərin ərazisini işğal etmək məqsədilə təxribat və avantüralara əl ata bilərlər. Bu dairələrin anlaşılmaz ”imperiya” ambisiyaları var ki, onlar əslində, heç də reallığa uyğun deyil, eyni zamanda, Ermənistanın imkanları və potensialı, həmçinin onun ordusu ilə tərs mütənasibdir.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində türkiyəli politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl söyləyib.

Onun sözlərinə görə, Ermənistan bir vaxtlar xarici güclərin dəstəyi ilə ərazilərin işğalı, dinc əhalinin məhv edilməsi, bu ölkəyə heç vaxt aid olmamış torpaqlarda etnik təmizləmə üzrə müəyyən ”uğurlar” qazana bilib. Lakin indiki mərhələdə Azərbaycan qüdrətli ordusu olan güclü dövlətə çevrilib və düşünülmüş diplomatiya aparır. Onun Türkiyə ilə müttəfiqlik münasibətlərinin isə bir əsrdən çox tarixi var.

Agentliyin həmsöhbəti vurğulayıb: ”Bu nöqteyi-nəzərdən deyə bilərik ki, Ermənistan sülh prosesini uzatmaqla, özünə əlavə çətinliklər yaradır. Azərbaycan və Türkiyə ilə sülh müqaviləsi imzalanarsa, Ermənistan həqiqi dövlətə çevrilə bilər, axı onun müstəqilliyi və suverenliyi bundan asılıdır. Əks halda, Cənubi Qafqazda erməni dövlətçiliyinin mövcudluğu ermənilərin özü üçün ciddi problemə çevrilə bilər. Ermənistan öz ambisiyalarından və təxribatçı əməllərindən əl çəkməli, gələcəyə ayıq gözlə baxmalı və mümkün qədər tez bir müddətdə sülh sazişini imzalamalıdır”.

Türkiyənin milli müdafiə naziri Yaşar Gülərin və bu ölkənin Silahlı Qüvvələrinin Baş qərargahının rəisi Metin Gürakın Azərbaycana rəsmi səfərlərini şərh edən türkiyəli politoloq qeyd edib ki, bu gün Bakı və Ankara Şuşa Bəyannaməsinin imzalanması ilə təsbit olunmuş müttəfiqlik münasibətlərinin xüsusi nümunəsini nümayiş etdirir.

Ekspert bildirib: ”Dövlətlərimizin təhlükəsizliyi qarşılıqlı şəkildə bir-birinə bağlıdır və bu proses qarşılıqlı idarə olunur. Həmin nöqteyi-nəzərdən Türkiyənin hərbi rəhbərliyinin nümayəndələrinin Azərbaycana səfərləri xüsusi əhəmiyyətə malikdir. Bu, təkcə ikitərəfli danışıqlardan ibarət deyil, həm də ölkələrimizin, eyni zamanda, bütün regionun təhlükəsizliyinin möhkəmlənməsinin əsaslarının yaradılması baxımından vacibdir. Hazırda Azərbaycan ilə Türkiyənin müttəfiqliyi regional aspektdə ciddi faktordur və beynəlxalq ictimaiyyət üçün uğurlu örnəklərdən biridir. İkinci Qarabağ müharibəsi bunu göstərdi və həm də sübut etdi ki, müasir Azərbaycan və Türkiyə orduları XXI əsrin silahlı qüvvələridir”.

Professorun fikrincə, Türkiyə quru qoşunlarının NATO-da ən güclü qoşunlardan biri və Azərbaycan və Türkiyə ordularının NATO nü-



munəsi modelində olmasına baxmayaraq, ordu quruculuğunda hər iki ölkə, ilk növbədə, məhz vahid türk silahlı qüvvələri modelinə üstünlük verir. Toğrul İsmayıl əlavə edib: ”Bu model digər analoji modellərdən və ya onların yaradılması cəhdlərindən fərqlənir. Mən İran və Ermənistanın, Hindistan və Ermənistanın, Fransa və Ermənistanın əməkdaşlığını nəzərdə tuturam. Ermənistanın KTMT-nin üzvü olduğunu nəzərə alsaq, adıçəkilən ölkələrlə onun ciddi inteqrasiyası mümkün olmamalıdır. Bu məsələdə həmin İran, Hindistan və ya Fransanın regional məsələlərə nə dərəcədə realistik yanaşdıqları da nəzərə alınmalıdır. Ermənistanın təcavüzkar siyasətini dəstəkləmək bir məsələdir, amma silah satmaq, digər, qonşu dövlətlərin ərazisini işğal etmək üçün yeni hərbi alyanslar yaratmaq isə tamam başqadır. Bu, yolverilməzdir və beynəlxalq hüquqa ziddir. Azərbaycan Ordusu təcavüzkar və ya işğalçı ordu deyil. Bu, milli azadlıq ordusudur və onun gündəliyində, ilk növbədə, ölkənin və onun sərhədlərinin təhlükəsizliyini qorumaq var. Hərçənd, onun imkanları və potensialı o qədər böyükdür ki, Ermənistanı, sadəcə, darmadağın edə bilər və sülh prosesinin uzadılması bu cür yanaşma üçün əsas yaradır. Lakin biz görürük ki, Azərbaycan həm hərbi-siyasi, həm də strateji aspektdə buna ehtiyac duymur və hələ ki, belə bir zərurət yoxdur. Azərbaycan və Türkiyənin sülh təşəbbüsləri Ermənistan-İran, Ermənistan-Hindistan və ya Ermənistan-Fransa tandemlərinin regional məsələlərin həllinə yanaşmasından daha humanist məqsədlər daşıyır”.

Hərbi əməkdaşlığın güclənməsinin möhkəm regional təhlükəsizlik şəraiti yaradılmasına yönəldiyini qeyd edən türkiyəli politoloq əlavə edib ki, Türkiyə və Azərbaycan nəinki özləri, həm də regiondakı, qonşu ölkələr üçün ”3+3” və başqa formatlar yaradılmasını təklif edir.

Professor sonda deyib: ”Bununla yanaşı, Bakı və Ankara gələcəyə baxır və Türk Dövlətləri Təşkilatının güclənməsi, bu strukturun qarşılıqlı şəkildə dəstəklənməsi, hərbi təlim üçün səylər göstərirlər. Azərbaycan və Türkiyənin hərbi müttəfiqliyi, həmçinin bu təşkilata üzv ölkələr, xüsusən Mərkəzi Asiya üçün nümunə kimi əhəmiyyətlidir. Bu ittifaq hamıya, o cümlədən bizim dostlarımıza Azərbaycan və Türkiyənin beynəlxalq ictimaiyyət qarşısında haqq işinin müdafiəsi işində bir-birinə kömək etməyə nə dərəcədə hazır olduğunu göstərir”.

# Dırnaqarası "blokada" nağılının sonu və SON DALAN

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bakıdan Xankəndinə 40 ton un məmulatı, ərzaq yardımı göndərib və bu yardım Azərbaycan ərazisində, Xankəndidə yaşayan erməni əsilli insanlar üçün nəzərdə tutulub. Xankəndidə erməni əsillilərin ehtiyaclarının olduğu barədə beynəlxalq ictimaiyyətə haylar çoxdandır hay-həşir salıblar və Qızıl Aypara Cəmiyyəti də irqindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, ehtiyacı olan hər kəsə, cəmiyyətin fəlsəfəsinə uyğun olaraq, kömək məqsədi ilə yardım göndərir. Yüklərin artıq yola salınması onu göstərir ki, dövlətimiz məhz Azərbaycan ərazisində yaşayan erməni əsilli insanlara lazımi yardımı göstərməyə hazırdır və danışıqlar zaman bu barədə bəyan edildiyinin həqiqət olduğunu beynəlxalq ictimaiyyət də əməldə görmüş oldu.**




Milli mənsubiyyətindən asılı olmayaraq, ərazimizdə yaşayan, ölkəmizin qanunlarını qəbul edən hər bir kəsin dövlətimiz tərəfindən təhlükəsizliyinin təmin olunması, onlara yardımların göstərilməsi çoxdandır ki, öz təsdiqini tapıb və bunu Azərbaycan ərazisində yaşayan müxtəlif etnik qruplar daha yaxşı bilirlər. Ona görə onlar daha yaxşı bilirlər ki, hər zaman Azərbaycan dövlətinin onlar üçün qarant olduğunu görüblər və buna əmindirlər. Elə ərazilərimizdə yaşayan erməni əsilli insanlara da bu təklif olunub və qanunlarımızı qəbul etdikləri halda, vətəndaşlıq alacaqları təqdirdə onlar üçün də eyni şəkildə təhlükəsizliklərinin təminatı vəd olunub. Özü də həmin ermənilər yaxşı bilirlər ki, rəsmi Bakı öz vədinə, verdiyi sözə hər zaman mütləq şəkildə əməl edib, sahib çıxıb və həmin vədə, həmin sözə zərrə qədər şübhə ola bilməz. Xüsusən də indi Xankəndində yaşayan erməni əsillilərə ərzaq yardımının göndərilməsi də bunu təsdiq etdi və haylar bir daha əmin oldular ki, Ermənistandan fərqli olaraq Azərbaycan tərəfinin bəyan etdikləri boş sözlər deyil.

Doğrudur, hansısa dırnaqarası "blokada", yaxud da hansısa qondarma və uydurma "humanitar fəlakət" kimi təqdim olunan erməni iddaları həqiqəti əks etdirmir. Əgər həqiqətən də Xankəndində erməni əsilli insanlar müəyyən problemlərlə qarşılaşıblarsa, ərzaq, yaxud da müxtəlif tələbat malları ilə bağlı çatışmazlıq varsa, bu, məhz separatçıların yaratdığı şərait ola bilər və bu məsələdə Azərbaycanı günahlandırmaq absurddur. Çünki Azərbaycan hansısa humanitar fəlakət yaratmaq niyyətində deyil və beş-on min erməninin problemlə qarşılaşması bizə heç lazım da deyil və bunu iddia etmək həddindən artıq gülünc səslənir, baxmayaraq ki, haylar axmaqcasına bu barədə bütün dünyaya hay-küy salmaqda davam edirlər. Məhz Qızıl Aypara Cəmiyyətinin yardımlar göndərməsi, həmin yardımların artıq yola düşməsi erməni təbliğatını, uydurmalarını yerlə yeksan etmiş olur.

Məsələ burasındadır ki, Qarabağ ermənilərinin məhz Bakının bu səxavətli jestinə necə reaksiya verməlеri bir sıra məqamlara aydınlıq gətirəcək. Aydın olacaq ki, həqiqətən də Xankəndindəki ermənilərin köməyə ehtiyacları var, yoxsa yoxdur. Guya 120 min erməninin aclıqdan ölmək həddində olması barədə nağılların artıq sonu çatıb. Qondarma və uydurma "blokada" barədə hay-küyün yalan olduğu tezliklə bütün dünyaya bəyan olacaq. Həqiqətən də humanitar yardıma ehtiyac yoxdursa, ermənilər bundan imtina edəcəklər, necə ki, artıq bu barədə Ermənistan mediasında fikirlər səsləndirilir. Səsləndirilən fikirlərdən belə məlum olur ki, Azərbaycan tərəfindən göndərilən yardımlardan imtina etmək niyyətləri var. Üstəlik, bir halda ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti həmin ərazilərdə, daha dəqiq desək, Xankəndidə yaşayan ermənilərin ehtiyaclarını araşdırmaq və lazım gələcəyi təqdirdə yenidən yardım göndərmək qərarındadır və bunu hədəfləyir, deməli, reallıqların üzə çıxmasına və erməni yalanlarının bütün dünyada tamamilə ifşasına çox az qalıb.

Diqqətə çatdıraq ki, "aclıq" çəkdikləri iddia edilən ermənilərə heç Ermənistan tərəfi bu zamana qədər yardım etməyib, yaxud da guya edə bilməyib. Doğrudur, Xankəndinə humanitar yardım adı altında Ermənistan tərəfindən 400 tona yaxın yük göndərilmişdi, amma həmin o dırnaqarası yardım heç də Xankəndidəki ermənilərə çatmadı. Bir sözlə, İrəvan guya yardım edə bilmədi. Əlbəttə ki, əgər Ermənistan tərəfi yardım etmək niyyətində olsaydı göndərdiyi, yaxud göndərəcəyi yük barəsində əvvəlcədən Azərbaycan hökuməti ilə razılığa gələrdi. Əks halda bunu etmək, sərhədlərimizi icazəsiz keçmək niyyəti ilə yük göndərmək dövlətin ərazi bütövlüyünə qəsd kimi qiymətləndirilir. Elə buna görə də onlar buraxılmayıb, İrəvan bu addımı Azərbaycanın rəsmi qurumları ilə razılaşdırmadığı üçün sərhədçilərimiz bu yük maşınlarının qarşısını haqlı olaraq kəsib. Dünya ictimaiyyəti də, beynəlxalq təşkilatlar da qəbul edirlər və bilirlər ki, Azərbaycan sərhədçilərinin məhz ermənilərin icazə alınmadan, razılaşdırılmadan göndərdikləri yük maşınlarını buraxmaqdan imtina etmələri tamamilə qanunauyğundur və beynəlxalq hüququn bütün tələblərinə də cavab verir. Bunu elə Ermənistan hökuməti də yaxşı bilir və belə olan halda, razılaşdırılmadan, icazə almadan humanitar yük adı altında göndərdiklərinin buraxılmayacağını bilə-bilə etdikləri nə idi? Buna yardım yox, ancaq şou adı verilə bilər və görünən odur ki, ermənilər yardım etmək yox, elə həmin o yükləri də məsələni siyasiləşdirmək üçün göndəriblərmiş. Belə bir şəkildə ona görə edilirdi ki, qondardıqları dırnaqarası "aclığın aradan qaldırılmasına" azərbaycanlıların guya imkan vermədiklərini sonradan bütün dünyaya hayqırsınlar. Bir sözlə, yardım etmək istəyən bunu elə edə bilərdi ki, ehtiyacı olana çatsın. Əgər ermənilər bunu hələ də edə bilməyiblərsə, yardım elə məhz Azərbaycandan göndərilibsə, göndərdiklərimizə də Ermənistan tərəfi ağız büzürsə, deməli, məsələ gün kimi aydındır və məqsəd heç də yardım deyil, hansısa təbliğat kampaniyası qurmaq, ölkəmizin əleyhinə fikir formalaşdırmaqdır. Lakin artıq göndərilən yüklər ən tez zamanda məsələnin əsl mahiyyətini ortaya qoyacaq, erməni yalanları bir daha ifşa olunacaq.

Sözsüz ki, Bakının xeyriyyə təşəbbüsü İrəvanı qətiyyən qane etmir və Azərbaycanın xeyriyyə təşəbbüsü ermənilərin heç də ürəyincə deyil. Bunu erməni mediasından da görmək və anlamaq olur. Əlbəttə ki, Bakının xeyriyyə təşəbbüsündən ermənilərin qıcıqlanmalarının səbəbləri də bəllidir. İlk növbədə bəlli olan odur ki, Azərbaycan tərəfinin xeyriyyə təşəbbüsü ilə İrəvan artıq qondarma və dırnaqarası "blokada" məsələsilə bağlı beynəlxalq ictimaiyyəti çaşdırmaqda davam edə bilməyəcək, çünki arqumentləri qalmır. Digər tərəfdən bu xeyriyyəçilik addımı həm də Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına Bakının hazır olduğunu təsdiqləyir və reinteqrasiya məsələsi ilə əlaqədar separatçıların erməni əsilliləri aldatmaq arzuları belə puça çıxır. Bununla rəsmi Bakı bəyan edir və həm də konkret olaraq göstərir ki, Qarabağ ermənilərinin reinteqrasiyası üçün separatçı ermənilərdən fərqli olaraq divarlar hörmür, yollar çəkir, yollar açır. Bəyan edir və əyani şəkildə sübut edir ki, Ermənistan tərəfi ortalığa beton bloklar ataraq yolları kəsdikləri halda, Azərbaycan tərəfi yeni-yeni yollar salır, imkanları getdikcə genişləndirir, reinteqrasiya üçün şəraiti daha da yaxşılaşdırır.

Xatırladaq ki, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin ehtiyaclarını ödəmək üçün Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi marşrutu iyulda Azərbaycan və Ermənistan dövlət başçılarının Brüssel görüşündə razılaşdırılıb və Avropa İttifaqı Şurasının sədri Şarl Mişel də bu marşrutu bəyənib. Ağdam-Xankəndi yolundan istifadə edilməsi barədə Azərbaycanın təklifi İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tərəfindən də müsbət qarşılanıb və İƏT Baş Katibliyi Azərbaycanın öz ərazisində sərhəd-buraxılış məntəqələrinin yaradılması ilə bağlı qərarlarını və daha iri yüklərin daşınması üçün Ağdam-Xankəndi yolundan istifadə təklifini qanuni sayır. Hətta bu yaxınlarda BMT Təhlükəsizlik Şurasının fövqəladə iclasında Ermənistanı bəzi ölkələr Azərbaycanı dinləməyə çağırıblar və qeyd ediblər ki, Qarabağ ermənilərinin həqiqətən də "humanitar ehtiyacları" varsa, Ağdam şossesi ilə daşımaları həyata keçirməyə etiraz etməməlidirlər. Amma gözlənildiyi kimi, bu, Ermənistan cəmiyyətində açıq şəkildə narazılıqla qarşılanmaqdadır. Sual olunur ki, niyə? Niyə beynəlxalq təşkilatlar da Azərbaycanın təklifini bəyəndiyi halda, bunu qanuni, doğru addım saydığı halda Ermənistan buna ağız büzür, narazılıq ifadə edir, bu təkliflə razılaşmır? Səbəb nədir ki, ən qısa və ən əlverişli yoldan ermənilər imtina edərək daha uzun yolu seçirlər? Əgər ermənilər dünya ictimaiyyətinə Azərbaycan barədə anti-təbliğat aparmaq, ölkəmizi təcavüzkar kimi, blokada yaradan ölkə kimi təqdim etmək istəməsəydilər Qarabağda guya "aclıqdan ölənlərə" Ağdam vasitəsilə kömək təklifimizdən niyə imtina edirdilər?

Məsələ burasındadır ki, bu dəfə vəziyyət tamamilə fərqlidir və Azərbaycanın yardımından imtina ediləcəyi təqdirdə, ölkəmizin xeyriyyə təşəbbüsünə qıcıqlanacaqları halda uydurduqları "blokada" nağılının sonuna gəlmiş olacaqlar. Çünki bu imtina ilə öz yalanlarını özləri təkzib etmiş olacaqlar və heç bir "blokada" olmadığını özləri təsdiq edəcəklər. Təsdiq edəcəklər ki, əgər hansısa "ehtiyac" olsaydı, xeyriyyə təşəbbüsünü qəbul edərdilər və qəbul etmədikləri təqdirdə hansısa dırnaqarası "blokada", yaxud hansısa nağıldan danışmaları gülüncdür. Həmçinin onu da xüsusilə qeyd etmək yerinə düşərdi ki, əgər ölkəmizin xeyriyyə təşəbbüsündən, yardımlardan imtina edilsə, bunun adını bundan sonra heç "blokada" qoya da bilməyəcəklər və uzaq başı bu, bir ərazidə "aclıq aksiyası" həddini aşa bilməyəcək. Ölkəmizin yardımından imtina etməsələr belə apardıqları təbliğatın sonu olacaq, çünki Xankəndidə erməni əsilliləri Azərbaycan tərəfinin guya "blokada" vəziyyətində saxladığını iddia edənlərin apardıqları təbliğat məhz Azərbaycanın yardımını qəbul etdikləri halda puç və mənasız olur. Hansı ölkə "blokada" vəziyyətində saxlamaq istədiyi topluma yardım göstərir? Qəbul edilməsindən və ya edilməməsindən asılı olmayaraq, Azərbaycanın bu yardımından sonra ermənilər öz nağıllarına kimi inandıra bilərlər? Bütün bunlar onu deməyə əsas verir ki, ermənilərin uydurduqları dırnaqarası "blokada" nağıllarının sonu çatıb və artıq bu, son dalan sayıla bilər.

***İnam Hacıyev***

# QUBADLI:

# 30 ilin o başı, bu başı...




***1993-cü ilin 31 avqustunda düşmənin haram əlinə keçmişdi, Qubadlı. Bu gün azad Qubadlı ilə ozamankı Qubadlını düz 30 il birləşdirir. Həm də 30 ilin o başındakı Qubadlı ilə bugünkü Qubadlı tamamilə fərqlidir. Üç ildir, Qubadlı Qarabağın və Şərqi Zəngəzurun digər torpaqları kimi erməni işğalından azad olunub. 2020-ci ilin 44 günlük Vətən müharibəsinədək artıq 27 il idi ki, bu qədim torpaq bədnam qonşunun haram tikəsi olmuş, sakinləri düşmənin silahı burnunda doğma ev-eşiyindən didərgin salınmışdı. Qubadlılılar da məcburi köçkün həyatı yaşamağa məcbur olmuşdu. Bu həyat onlardan nələri almışdı, bunu o həyatı yaşayandan başqa kimsə bilməz...***




***

Qədim qalaları, türbələri, mağaraları, körpüləri ilə tarixin özüdür, Qubadlı. Əsrlərin o üzündən boylanan, qədimdən qədim tarixi, gözəllikləri-dağları, dərələri, meşələri, fauna və florası, çayları, təbii zənginliyi ilə şiş dağları, ərazilərі, sıldırım qayaları, bu qayaların sinəsinə pərçimlənmiş evləri, yetirdiyi-bitirdiyi nemətləri ilə füsunkardır, Qubadlı. Zəngəzur mahalından başlanan dağ silsilələri Zəngilandan Qubadlıya, Qubadlıdan Cəbrayıla, oradan Füzuliyə, ta Laçına, Xankəndinə uzanır. Bu dağların havası, zirvəsindən süzülən saf suları, hər daşı, hər qayası bu yurdların həm coğrafi oxşarlığının, həm də insanlarının xarakterсə bir-birinə bənzəməsinin səbəbidir.

## Ali Baş Komandandan Qubadlı xəbəri

2020-ci il oktyabrın 25-i yeni Azərbaycan tarixinin növbəti şanlı səhifəsinə çevrildi. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciəti yenə də işğaldan azad edilən ərazilərimizin xoş müjdəsi ilə bitdi: "İndi Azərbaycan xalqının səbirsizliklə gözlədiyi siyahıları böyük məmnuniyyət və qürur hissi ilə xalqımın diqqətinə çatdıracağam. Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunun azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!

Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Ali Baş Komandan, Prezident cənab İlham Əliyev həmin gün Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik etdi. Dövlətimizin başçısı onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzuladı, təbriklərinin və təşəkkürlərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırdı.

## Əsrlərin o üzündən boylanan QUBADLI

IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, Muradxanlı kəndindəki V əsrə aid "Qalalı", Əliquluuşağı kəndindəki "Göyqala" abidələri, XIV əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Yazı düzündəki "Cavanşir" türbəsi, Hacı Bədəl, Laləzar körpüləri, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr, Gürcülü kəndində olan XVII əsrə aid türbə, XVIII əsrə aid Xocamsaxlı kəndində olan türbə, ərazisində inşa olunan yaşı bir əsrdən artıq ilk dünyəvi məktəb Qubadlının qədim tarixindən danışır. Bu yurdun elm, mədəniyyət mərkəzlərindən, tarixi-dini abidələrindən, insanların ibadətindən, xüsusi maraq doğuran "Qubadlı" toponiminin mənşəyindən söhbət açır.

Tarix danışır, Qubadlının 1993-cü ildə işğalı ərəfəsində rayona çox yaxın yerdə, Hacılı kəndi yaxınlığında bir qazıntı yerində Sasani şahı Qubadın (488-531) adından zərb edilmiş 60-a qədər gümüş sikkə nümunələrinin tapıldığını, dəfinənin olduğu küpün hündürlüyünün 10,5, oturacağının diametrinin 6,5 santimetr olduğundan söhbət açır. Tarixçilər sübut edir ki, bu sikkələr 521-522-ci illərdə kəsilmişdir. Qubadlı adının mənşəyi tarixi mənbələrə əsasən I Qubadın adı ilə bağlı olsa da, yaşayış məskəni kimi lap qədim dövrlərə gedib çıxır. Tədqiqatçıların araşdırmalarında Qubadlı əvvəllər Azərbaycanın şimalında mövcud olan Albaniyanın tərkibində olduğundan, sonra ərəb xilafətinin əsarəti altına düşdüyündən, xilafətin süqutundan sonra, IX-X əsrlərdə Sasanilərin, X əsrdə Sacilərin, XI-XII əsrlərdə Şəddadilərin, XII-XIII əsrlərdə Atabəylər-Eldəgizlərin, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil edildiyindən danışır. Bu tarix qərbdən 120 kilometr məsafədə Ermənistanla, şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Cəbrayıl rayonları ilə həmsərhəd olan Qubadlının Azərbaycanın qədim yaşayış məskənlərindən olduğunu hər daşı, qayası, bu torpağın hər qarışı ilə sübut edir.

## Qubadlı şəhəri Qubadlının açarıdır

Qubadlı haqqında bir yazıda oxuyuram: "Palıd bu meşələrin arxası, vələs dövləti, alma, armud, fındıq, əzgil, zoğal, yemişan... sərvəti, dağ çayları, şəlalələr, buz bulaqlar şöhrəti, qara gözlü əliklər, xınalı kəkliklər, qırqovullar, turaclar, göyərçinlər... gözəlliyi idi". Bəli, bu yazı o vaxt yazılmışdı ki, rayonun olduqca gözəl təbiətinin yetirdiyi meşələr ermənilər tərəfindən qırılaraq Ermənistana və ya xarici ölkələrə daşınırdı. Bu, müəllifin yanğısı idi, dağıdılan meşələr fonunda Qubadlının gözəlliklərinin ürək yanğısı ilə vəsfi idi. Sanki bu gözəl məkana bir təəssüf hissi idi o cümlələr...

Əziz müəllif, artıq "idi"lər arxada qaldı. Qubadlı şəhəri bütün rayonun açarıdır ki, o açarı da milli ordumuzun qəhrəman əsgər və zabitləri əldə etdi. Bəli, bu, bir möcüzə idi. Qədim Azərbaycan nağıllarında divin əlindən igidimiz tərəfindən padşahın qızının alınması kimi... Məmləkətə gələn suyun qarşısını kəsən əjdahanın igid oğlan tərəfindən öldürülüb suyun qarşısını açması kimi... Qubadlının-bu gözəlliklər məkanının açarı da 30 ilə yaxın dövrdə bu əzəli, həm də strateji əhəmiyyətli torpağımızda keçilməz barrikadalar yaratmış ermənilərin əlindən alındı. Bu açar inzibati bölgüsünə 1 şəhər, 93 kəndin aid olduğu Qubadlının tamamilə azadlığı demək idi ki, bunu da görə bildik.

Ardı Səh. 6

# QUBADLI: 30 ilin o başı, bu başı...




Əvvəli Səh. 5

## Gözəlliklər məkanı yurd yeri

Axır ki, bu gözəl məkanın illərdən bəri susan iki böyük dağ çayı- Həkəri və Bərgüşad yenidən çağladı. Öz mənbəyini Kəlbəcərdən götürən, Araza qovuşana kimi bir çox dağ çaylarına da qoyun açan, illərdir suları həm Kəlbəcərin, həm Qubadlının göz yaşı olan Həkərinin, mənbəyi Ərikli dağlarından başlayan Bərgüşadın suları göz yaşından arındı, şükürlər olsun. Dağ bulaqlarından süzülüb gələn sulardan, Dəli çaydan, Şəki çaydan, Taxtakörpü çayı, Daşlı dərə, Bəxtiyarlı, Ağa çaylarından güc alan Bərgüşadın və Həkərinin Qaralar kəndinin yaxınlığında birləşib Araza qovuşması bir başqa oldu, sevinclə, qürurla... Axı onlar da bu yurdun insanları kimi məskənlərindən dərbədər edilmişdilər. İnsanların taleyinə qaçqınlıq, köçkünlük yazıldığı kimi, çayların da axınının səmti dəyişdirilmişdi. Qubadlılılar indiyədək Vətənin ayrı-ayrı yerlərində yurd həsrətlilərinə çevrildikləri kimi, Qubadlının çayları, bulaqları, meşələri, ağacları, bitkiləri öz yurdlarında qəribçilik ömrü yaşamağa məhkum olunmuşdular. Hələ üstəlik meşələr düşmən əli ilə Vətəndən kənara çıxarıldı, bitkilərin kökü kəsilərək Qubadlıya həsrət qaldı, çaylar öz məhvərindən çıxarıldı.

İqlimi əsasən mülayim isti və quru subtropik olan rayonun bir hissəsi aran olsa da, əsas hissəsi dağlıqdır. Buradakı 13,2 min hektar meşə sahəsi dağlıq yerləri öz örtüyünə bürümüşdür. Hərtiz və Səngər dağlarındakı şəfalı bulaqlar can dərmanıdır.







Qubadlılılar taxılçılıq, tütünçülük, baramaçılıq, üzümçülük və heyvandarlıqla məşğul olurdular. Böyük Qayıdışla yaxın gələcəkdə doğma ocaqlarına qayıdacaq qubadlılılar torpaqlarına, təsərrüfatlarına da yeni həyat gətirəcəklər. Bu zəngin yurdun torpaqları taxıl zəmilərinə, üzüm, barama, tütün sahələrinə bürünəcək, dağlarının yamaclarından yenidən qoyun-quzunun, malqaranın səsi gələcəkdir. Çobanların neyindən süzülən "Qarabağ" şikəstəsi doğma səsə 30 illik təşnə yurdun bu həsrətini vüsala çevirəcəkdir.

Qubadlıda böyük işlənməmiş əqiq yatağı, mərmər karxanası da var idi, indi qalırsa əgər... Qalmasın heç, qoy gözüaclar, bu xalqın hesabına torpaq sahibi olanlar onları da aparmış, talamış, satmış olsunlar. Təki torpağımızdan ac gözlərini çəksinlər. Çünki Azərbaycan xalqı üçün torpaqdan qiymətli heç nə yoxdur.

## Bu yurd Əliyar, Şükür, Nəbi yurdudur

Bu yurd 1992-ci ilin iyun ayının 24-də Qubadlı rayon mərkəzini bombalamağa uçan üç vertolyotu döyüşçüləri ilə vurub salan, avqust ayında həyata keçirilən "Şurnuxu" əməliyyatında iştirak edərək bir gün ərzində ermənilərin 80-dən çox canlı qüvvə və bir neçə texnikasını məhv edən, düşmənin Gorusun Şurnuxu kəndindəki postunu darmadağın edən, həmin ilin payızında 40 könüllü döyüşçü ilə birlikdə işğal altındakı Laçının 40-a qədər kəndini 4 gün ərzində ermənilərdən azad edən Birinci Qarabağ müharibəsi iştirakçısı, milli qəhrəman Əliyar Əliyevin yurdudur.

Bu yurd "Burada ermənilərə yaxşı dərs verdik. Düşmən çaşğınlıq içərisində idi, başlarını itirmişdilər. Ermənilər Lələ təpə istiqamətindəki ərazini "Ohanyan səddi" adlandırırdılar. Onlar hesab edirdilər ki, burada möhkəmləniblər və guya bura keçilməz idi. Amma döyüşçülərimiz bu səddi göz qırpımında keçdilər. 40 dəqiqə ərzində bizim hərbçilərimiz həmin ərazini azad etdilər. 1 saatın sonunda həmin təpədə bayrağımız dalğalanırdı. Bütün istiqamətlərdə düşmən pərakəndə şəkildə qaçırdı. Düşmən yaxşı döyüş aparsaydı, bu daha zövqlü olardı",- deyən qəhrəmanlığı ilə erməniləri qorxuya salan İkinci Qarabağ müharibəsi iştirakçısı, Milli Qəhrəman, 23 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Şükür Həmidovun yurdudur, XXI əsrin qəhrəmanlarının yurdudur.

Bu yurd vaxtilə çar hökumətinə, zülmkar mülkədarlara qarşı mübarizə aparan, bir də elə qonşuluqdakı erməniləri cızıqlarında saxlayan, Naxçıvan və Zəngəzur mahallarında qaçaqlıq edən Qaçaq Nəbinin yurdudur. 20 il çar hökumətinin məhv etməyə çalışdığı, lakin bacara bilmədiyi, başına topladığı igidlərlə insanların haqqı olanlarını ədalətə çevirən, Azərbaycan xalqının unudulmaz xalq qəhrəmanı Qaçaq Nəbi, Qoçaq Nəbi... Elimizin özü kimi mərd qızı Həcərlə hünər meydanında qoşa adımlayan, düşmənə bu Vətənin XIX əsr vətənpərvərlik nümunəsini sərgiləyən, adına dastanlar, nağıllar, şeirlər yazılan, hər bir azərbaycanlının qəlbində yaşayan Qaçaq Nəbinin yurdudur Qubadlı. Yəqin ermənilər yaxşı xatırlayarlar:

*Nəbinin birçəyi oyma-oymadı,*
*Qırdı saldatları, birin qoymadı.*
*Bu davada Nəbi tufan eylədi,*
*Kazakları qırıb fiğan eylədi.*
*Burda Nəbi yenə bir ad eylədi,*
*Erməni Ginkuru bidad eylədi.*

Gələcəkdi Əliyarın, Şükürün, Nəbinin davamçıları bir gün bu Vətəni, bu yurdu erməni zorakılığından xilas etməyə. Bunu ki siz ermənilər biz azərbaycanlılardan yaxşı bilirdiniz. Gəldilər də, sizə Füzulidə, Cəbrayılda, Hadrutda, Kəlbəcərdə, Qubadlıda və Şuşada elə bir dərs verdilər ki, tarix durduqca xatırlayacaqsınız.

**Mətanət Məmmədova**



# 30 AVQUST - Türk ulusunun zəfər dastanının yazıldığı gün

30 avqust - Türk ulusunun zəfər dastanının yazıldığı gün. Bəli, Türkiyənin Zəfər bayramı haqqında yazarkən, bir məqamı da qeyd etmək yerinə düşər. Bu da ”bir millət iki dövlət” olan Azərbaycanla Türkiyənin varolma tarixlərindəki oxşarlıqla bağlıdır. Belə ki, hər iki dövlətin müstəqilliyi ağır və qanlı savaşlardan keçib. Dahi Mustafa Kamal Atatürk Qurtuluş savaşına öndərlik etməklə Osmanlı imperiyasının ərazilərinin xarici işğalçılar tərəfindən ələ keçirilməsinin qarşısını aldı və Türkiyə Cümhuriyyətinin əsasını qoydu. Ulu öndər Heydər Əliyev isə 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələndən sonra xarici və daxili düşmənlərin parçalanma planlarının mərkəzində dayanan Azərbaycanı yox olmaq təhlükəsindən xilas etdi. Müasir, qüdrətli və daim inkişaf edən dövlətin əsasını qoydu.






### PREZİDENT İLHAM ƏLİYEV: ”Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının




### və müttəfiqliyinin dünyada bənzəri yoxdur”

”Xüsusi qürur hissi ilə qeyd edə bilərik ki, ”Bir millət iki dövlət” prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur”. Bu fikir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin Zəfər Bayramı münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana göndərdiyi təbrik məktubunda yer alıb. Dövlətimizin başçısı təbrik məktubunda 30 Avqust Zəfər Bayramının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana və qardaş Türkiyə xalqına ən səmimi təbriklərini və xoş arzularını yetirib.

Məktubda deyilir: ”Yüz il əvvəl Dumlupınarda Qazi Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılmış şanlı qələbə qardaş xalqınızın qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Türkiyənin müstəqillik və istiqlaliyyət mübarizəsi salnaməsinə qızıl hərflərlə həkk olunmuş bu böyük zəfər xalqınızın sarsılmaz iradəsinin, yenilməzliyinin, birliyinin və şücaətinin bariz nümunəsidir. Vətənlərinin azadlığı və müstəqilliyi yolunda mərdlik və rəşadət göstərmiş, canlarını vermiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Möhtəşəm zəfərdən ötən bir əsr sonra bu gün qardaş Türkiyə Sizin rəhbərliyiniz ilə hərtərəfli inkişaf edən, güclü və qüdrətli bir ölkəyə çevrilmişdir. Dünyada və regionda baş verən mürəkkəb proseslərdə qətiyyətli və prinsipial mövqeyi, sülhün, haqq-ədalətin bərqərar olması üçün ardıcıl səyləri ilə Türkiyə beynəlxalq aləmdə nüfuz qazanmışdır. Ölkənizin bütün sahələrdə əldə etdiyi uğurları bizi olduqca fərəhləndirir”.

Təbrik məktubunda ”Bir millət iki dövlət” prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri olmadığını qürur hissi ilə vurğulayan Prezident İlham Əliyev qeyd edib: ”Dövlətlərarası münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Əminəm ki, tarixən bir-birinə dəstək və dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik”. Və bu gün Türkiyə-Azərbaycan qardaşlığı

### MARAQLARA DEYİL, DƏYƏRLƏRƏ ƏSASLANARAQ BÖLGƏYƏ SÜLH VƏ SABİTLİK GƏTİRİR

Bəli, bu qardaşlığın nəticəsidir ki, Türkiyə ilə Azərbaycan arasında əlaqələrdə atılan hər addım regional əməkdaşlığın inkişafına, təhlükəsizliyin güclənməsinə xidmət edir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi iki dövlətin əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son bir ildə Azərbaycana ardıcıl olaraq səfərlər etməsi, iki güclü liderlərin görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər.

### VƏ BU İKİ LİDERİN UCA ŞƏXSİYYƏTİNƏ, MƏNLİYİNƏ, MƏNƏVİYYATINA, DƏYƏRLƏRƏ BAĞLILIĞINA YARAŞAN DA ELƏ MƏHZ BUDUR!

Prezident İlham Əliyev: ”Bu gün Türkiyəyə qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm”.

Bəli, bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

Və bu gün ....

### 30 AVQUST QƏLƏBƏSİ TÜRK MİLLƏTİNİN SARSILMAZLIĞININ VƏ İRADƏSİNİN NÜMUNƏSİDİR

Türkiyə Cümhuriyyətinin dövlətçilik tarixində mühüm yerlərdən birini tutan 30 avqust - Zəfər bayramı gününü hər il Azərbaycan da Zəfər bayramı kimi qeyd edir. Zəfər bayramına bu cür önəmin verilməsi isə heç də təsadüfi deyil. Çünki Türk xalqı və Türkiyə Silahlı Qüvvələri Mustafa Kamal Atatürkün öndərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfərini qazanıb. Bu böyük Zəfər, 30 avqust qələbəsi türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir. Bütün bunların nəticəsində bugünkü Türkiyə dövləti meydana gəlib. Lakin bu qələbə heç də asanlıqla qazanılmayıb. Təkcə Türkiyənin deyil, eyni zamanda, türklüyün şərəf tarixi olan 30 avqusta aparan yolda saysız-hesabsız savaşlar baş verib, türk millətinin qeyrətli oğul və qızlarının qanları axıdılıb.

Zəfər bayramı 1922-ci ilin 26 avqustunda başlayıb 30 avqustda Dumlupınarda Mustafa Kamal Atatürkün baş komandanlığı altında qələbəylə nəticələnən ”Başkomutanlıq Meydan Müharibəsi”ni (Böyük Taarruz) yad etmək üçün qeyd olunan bayramdır. Zəfər bayramı ilk dəfə 30 avqust 1923-cü ildə Afyonqarahisar, Ankara və İzmirdə qeyd olunub. Rəsmi olaraq isə, Zəfər bayramı 1935-ci ilin may ayında elan edilib.

Beləliklə, 30 avqust 1922-ci il tarixi Türk ulusunun imperialist güclərə qarşı qadınıyla, uşağıyla, ordusuyla verdiyi bir savaşın, Zəfər dastanının yazıldığı gündür. Türk ulusunun müstəqillik düşüncəsinin ölümsüz bir abidəsi olan bu zəfər Türk ordusunun yüksək qüdrət və qəhrəmanlığının bir nümunəsidir. Bu zəfər milli birlik və bərabərliyin nə qədər böyük güc olduğunu da bir daha təsdiqləyib.

Həmin tarixi gün münasibətilə xalqa müraciət edən Mustafa Kamal Atatürkün ”Böyük Türk milləti! Ordularımızın qabiliyyət və qüdrəti düşmənlərimizə dəhşət, dostlarımıza əmniyyət verəcək şəkildə özünü göstərdi. Böyük zəfər sənin əsərindir” sözləri isə, ümumilikdə Türkiyə üçün yaşam şüarına çevrilib. Və bu gün həmin şüara sadiq qalan türk milləti dahi Atatürkün yadigarı və onun qurduğu dövlətin bir nömrəli keşikçisi olan Türk ordusunun daha da güclənməsi üçün əlindən gələni edir. çünki güclü ordu, güclü Türkiyə deməkdir!!!

Və buna görə də 30 Avqust - Zəfər bayramı Türkiyə kimi Azərbaycan üçün də müqəddəs gündür. Və bu gün Azərbaycan qardaş Türkiyənin uğurları ilə fəxr edir, onun hər bir uğurundan qürur hissi keçirir. ZƏFƏR bayramın mübarək, qardaş Türkiyə!

***RƏFİQƏ HÜSEYNOVA***

# Atatürkün Çiğiltəpədə unutmadığı intihar





***Yaxın türk tarixinin ən mühüm qırılma nöqtəsi Böyük Hücumda qanlı toqquşmaların baş verdiyi yerlərdən biri də polkovnik Rəşad bəyin komandanlığı altında qoşunların döyüşdüyü Çiğiltəpə idi. Rəşad bəy Mustafa Kamal Paşaya vəd etdiyi vaxt Çiğiltəpəni xilas edə bilmədiyi üçün həyatına son qoydu. Atatürk də bu şərəfli komandiri heç vaxt unutmadı.***

## Rəşad Çiğiltəpənin hekayəsi

Mustafa Kamal Paşanın 1919-cu il mayın 19-da Samsuna çıxması ilə başlayan Milli Mübarizə minilliklərə dayanan türk tarixində yeni bir səhifə açdı və bu il 100 illiyini qeyd edəcək Türkiyə Cümhuriyyəti doğuldu. Minlərlə şəhidin verildiyi Milli Mübarizənin ən kritik dönüş nöqtəsi 26 avqust 1922-ci ildə başlayan və 30 avqust 1922-ci ildə qəti türk zəfəri ilə sona çatan Böyük Hücum oldu. Böyük Hücumda cəbhənin əsas nöqtələrindən biri də polkovnik Rəşad bəyin komandanlığı altında olan qoşunların xilas etməyə çalışdığı Çiğiltəpə idi. Rəşad bəy baş komandan Mustafa Kamal paşaya vəd etdiyi vaxtda Çigitəpəni ala bilmədiyi üçün həyatına son qoydu. Atatürk bu şərəfli komandiri heç vaxt unutmamış və Soyad Qanunu çıxandan sonra Rəşad bəyin ailəsinə Çiğiltəpə soyadını vermişdi. Rəşad Çiğiltəpənin hekayəsini Dokuz Eylül Universiteti Atatürk Prinsipləri və İnqilab Tarixi İnstitutunun müəllimi Prof. Dr. Kamal Arı danışıb.

## O, nəsli kimi hərbiyə maraqlı idi

Rəşad bəyin ailəsi ilə bağlı çox məlumatın olmadığını bildirən Prof. Dr. Kamal Arı deyir: "Bir çox mənbələrdə onun 1879-cu ildə İstanbulda doğulduğunu görürük. Yenə də onun dövlət xadimi və yazıçı Ziya Paşanın oğlu olması barədə məlumat var. Bu nə dərəcədə doğrudur, biz tam əmin deyilik. Onun atasının qubernatorluqdan təqaüdə çıxdığı da deyilir. Anası isə Şevkiye adlı xanım olub".

Rəşad Çiğiltəpənin ailəsindən danışan, uşaqlıqdan hərbi xidmətə həvəsi olduğunu bildirən Prof. Dr. Arı sözünə davam edir: "Həyatında ən çox diqqət çəkən cəhət nəslinin bir çox uşaqlarında olduğu kimi, hərbi peşəyə olan marağıdır. Yəni o, daha erkən yaşda hərbçi olmaq istəyib və buna görə də hərbi məktəblərə gedib. Xüsusi bir cəhəti odur ki, cəbhədən cəbhəyə qaçıb. Çünki bilirsiniz ki, Osmanlı imperiyası bir-birinin ardınca müharibələrdə iştirak edib. Rəşad bəy də bir əsgər kimi bir çox cəbhələrdə vuruşmuş, uğurları ilə rəislərinin rəğbətini qazanmışdır. Eyni şey cəbhədə Mustafa Kamal Paşa üçün də keçərlidir, o da Rəşad bəyi cəbhədə tanımış və təqdir etmişdir. Onlar əvvəl Çanaqqala cəbhəsində də bir yerdə idilər. Sonra Muş və 1917-ci ildə Bitlis ruslardan geri alınarkən Rəşad bəy Mustafa Kamal Paşanın yanında idi. Buna görə də Qazi Mustafa Kamal Paşa Böyük Hücumda Çiğiltəpəni yunan əsgərlərindən almaq üçün birliyi ilə təpəyə hücum edən Rəşad bəyə göstərdiyi cəsarət, vətənpərvər və fədakar şəxsiyyətinə görə son dərəcə minnətdar idi.

## Bir ildən artıq həbs düşərgəsində

Birinci Dünya Müharibəsi illərində Rəşad bəyin bir çox cəbhədə döyüşdüyünü xatırladan Prof. Dr. Kamal Arı: "Birinci Dünya Müharibəsinin sonunda, 1918-ci ildə ingilislərə əsir düşdü. Həmin vaxt o, Suriya cəbhəsində idi; Fələstindən geri çəkilən orduda xidmət edirdi. Müharibənin sonu artıq bəlli idi və bu mərhələdə Rəşad bəyi ingilislər əsir götürdü. O, bir ildən çox həbs düşərgəsində qaldı. Müharibə başa çatdıqdan sonra onun əsirliyinə son qoyuldu və İstanbula qayıtdı. Amma bildiyiniz kimi, bu zaman Mustafa Kamal Paşa milli müharibəyə başlamışdı. Rəşad bəy dəniz yolu ilə İneboluya gəldi, oradan da Ankaraya getdi. O, Anadoluda milli mübarizə aparanların arasında olmuş, daha sonra müxtəlif vəzifələrə təyin edilmiş və yunan işğalına qarşı vuruşmuşdur.

## Rəşad bəy söz vermişdi...

Avqustun 26-da Böyük Hücumun səhəri Afyonda düşmən xəttinə ilk artilleriya atəşi başladı. Bir müddət sonra düşmən mövqeləri artilleriya atəşi ilə darmadağın edildi, daha sonra türk piyadaları hücuma keçdi. Türkər sinələrini süngüyə sipər etmişdi. Rəşad bəyə öz qüvvələri ilə düşmən əlində olan Çiğiltəpəni ələ keçirmək tapşırığı verildi. O da böyük sədaqət və cəsarətlə düşmənə hücum etdi. Həmin gün Kocatəpə ilə üzbəüz onun sağ və sol tərəfindəki təpələr sanki qan gölünə dönmüşdü. Bu təpələr geri alınmalı, düşmən buradan təmizlənməli idi. Eyni zamanda, türk süvariləri də düşmənin geri çəkilmə yollarını kəsmək vəzifəsini öz üzərinə götürmüşdü.

Prof. Dr. Kamal Ari deyir: Onlara Fəxrəddin Paşa başçılıq edirdi. Fəxrəddin Altay, yəni... Paşa malyariya xəstəliyindən əziyyət çəkir, titrəyirdi. Amma iki atın arasına çəkilmiş dirəklərdə düzəldilmiş xərəklə dağları keçməyə çalışırdı. Bax belə günlər, anlar yaşanırdı. Çətin və fədakarlıq tələb edən günlər...

Budur, Rəşad bəy də Çiğiltəpəni almaq üçün düşmən xəttinə hücum edir. Amma düşmən də güclü müqavimət göstərir, inadkarlıqla əks-hücumlara başlayırdı. Təpənin alınması isə gecikirdi.

Mustafa Kamal Paşa bunu Kocatəpədən ona gələn xəbərlərdən işləyirdi. Səbri tükənirdi. Çünki gecikmənin müharibə planını və hücumda qurulan strategiyanı pozacaq mənfi nəticələrinin ola biləcəyini çox yaxşı bilirdi. O, Rəşad bəyə zəng edir. Nə üçün təpənin alınmadığını soruşur. Rəşad bəy deyir ki, çox yaxında alınacaq, amma yenə ala bilmirlər. Qazi yenə telefonla danışır və israrla soruşur: "Niyə gecikdi?" Rəşad bəy yenə söz verir ki, onu tezliklə alacaqlar, amma almaq mümkün olmur. Nəhayət, Qazi yenidən telefonla danışır və bu dəfə Rəşad bəy deyil, onun köməkçisi Rəşad bəyin verdiyi sözə əməl edə bilmədiyinin qürurunu qırdığını və intihar etdiyini söyləyir.

Polkovnik Rəşad bəyin intihar etməmişdən əvvəl Mustafa Kamal Paşaya qoyduğu qeyd: "Sizə verdiyim sözə görə, mən yarım saat içərisində təpəyə çıxa bilmədim. Məqsədimə çata bilmədiyim üçün yaşaya bilmirəm".

## Atatürk heç bir zaman unutmadı

Bəs bu hadisə Mustafa Kamal Atatürkə necə təsir etdi? Atatürkün Rəşad Çiğiltepenin intiharını heç vaxt unutmadığını bildirən Prof. Dr. Arı bu hadisəni Türkiyə Böyük Millət Məclisində danışdığını da vurğulayaraq, "Qazi Mustafa Kamal bu hadisəni bir türk zabitinin qururunun, namusunun və vədinin nümunəsi kimi qiymətləndirdi. Hər bir zabitə lazım olanda Vətən uğrunda ölməyə hazır olması öyrədilir: həm düşüncədə, həm duyğuda, həm də bədəndə. Hər bir xalqın mədəni quruluşundan irəli gələn meyllər də var. Türk millətinin övladları Vətənləri üçün hər zaman canlarından keçməyə hazırdırlar. Bu vətənpərvərlik hissi həm də Vətəninizin işğal olunduğu dövrə təsadüf edərsə, ən yüksək səviyyəyə çatır. Ona görə də Rəşad bəyin vəziyyətini bu prizmadan qiymətləndirmək, yəni o psixologiyanı anlamaq lazımdır. Əsgərin qüruru var. O verdiyi sözə əməl edir və hər bir əmri ölümünü gözə alaraq yerinə yetirir. Bu, hərbi peşənin xarakteridir. Həm də ölkə üçün ölüm-dirim anı bir səhv bütöv bir xalqın məhvinə yol aça bilər. Bunun tarixi məsuliyyət baxımından ağırlığını təsəvvür edə bilərsinizmi? Məncə, Rəşad bəyi intihara sövq edən hisslərin əsası da bu idi. Bəs intihar həll yoludurmu? Mənim fikrimcə qətiyyən yox. İntihar insanların zehni qabiliyyətləri qüsurlu olduqda müraciət etdikləri bir hərəkətdir. Deməli, belə bir emosional yük altında Rəşad bəyin intihara üz tutduğunu deyə bilərik. Onsuz da bu, anlıq bir şeydir, tətiyə basarsan və iş bitər" sözləri ilə davam edir.

.Mustafa Kamal Paşanın intihar xəbərini alanda necə reaksiya verdiyini izah edən Prof. Dr. Kamal Arı, "O, təkcə kədərlənmir, həm də qəzəblənir. Bunu açıqca bəlli edir. Kədərini ifadə edərkən, "Amma intihara nə ehtiyac vardı?",- deyir. Təpənin alınması əmrini birbaşa verən komandir olduğu üçün onun da bir insan kimi üzülməsi təbiidir. Ancaq bu hərəkət həm də intihar edən insanın nə qədər məğrur, sözünün adamı, vətənpərvər olduğunu göstərir. Məncə, Atatürk bu hadisədən sarsılması ilə yanaşı, Rəşad bəy kimi zabitləri olan bir ordunun komandanı olması ilə də qürur duyurdu. Bu hadisəni hiss etmək, anlamaq xalq olaraq bizim borcumuzdur. Sonra isə birlik və bütövlük hissi ilə bir-birimizlə çiyin-çiyinə verməliyik ki, ölkəmiz ogünkü vəziyyətə bir daha düşməsin" deyərək sözlərini bitirmişdir.

***Tərcümə-Mətanət Məmmədova***
***P.S. Türkiyənin Zəfər Bayramı günündə böyük bir araşdırma, həm də çox maraqlı və oxunaqlı yazı dərc etdirdiyinə görə "Milliyyət" qəzetinin yazarı Oğuzcan Atışa təşəkkür edirik. Həm Azərbaycan, həm Türkiyə belə çətin yollardan keçərək bu günlərə çata biliblər.***

# Hər şeyə yarımçıq yamaq Gültəkin Hacıbəyli...



Bəzən baş verən hadisələrə münasibət bildirmirsən, "səbirli ol", deyirsən. Ancaq bir də görürsən ki, dövlətinin, xalqının ünvanına elə bir sözlər, elə böhtanlar deyilir ki, bu yerdə sakit dayana bilmirsən. Xüsusilə də, son günlər sosial şəbəkələrdə "Milli Şura"nın qeybətxana şousunun rəzillər, satqınlar etalonu AXCP sədri Əli Kərimlinin şinelindən çıxmış, sabiq millət vəkili Gültəkin Hacıbəylinin ölkənin hər bir uğuruna kölgə salmağa çalışmasını görəndə susa bilmirsən. İstər 2016-cı il aprel döyüşlərində, istərsə də də 44 günlük Vətən Müharibəsində şəhidlərlə bağlı dediyi fikirlər, doğurdan da nə qədər "ermənidən betər erməni" olduqlarını açıq göstərməkdir. AXCP sədri Əli Kərimlinin tapşırıq və sifarişlərini icra edən G.Hacıbəyli kimilərin fəaliyyətini cəmiyyətimiz ikrahla qarşılayır və birmənalı olaraq rədd edir.

## İkiüzlü, riyakar, reneqat Gültəkin Hacıbəyli...

Bir müdrik kəlamda deyilir ki, "Hansı yana gedəcəyini bilmirsənsə, hansı yolla getməyinin heç bir əhəmiyyəti yoxdur". Siyasətin çirkin iş olduğu haqqında da belə deyirlər ki, "əslində siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur". Bu gün dağıdıcı müxalifət düşərgəsində AXCP sədri Əli Kərimlinin "danışan dili" olan "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin sosial şəbəkələrdəki həqiqətdən uzaq, şər-böhtan dolu çıxışlarını dinlədikcə həmin fikirlərin həqiqət olmadığına bir daha əmin oluruq. Əslində, hər addımda ikiüzlülüyü, riyakarlığı ilə tanınan, parlamentin üzvü olanda dövlətin imtiyazlarından gen-bol istifadə edərək tam komfort şəraitində yaşayanda nədənsə bu xanım tamamilə başqa cür danışırdı. G.Hacıbəylinin o zamanlar başda Ə.Kərimli olmaqla dağıdıcı müxalifət düşərgəsinin başbilənlərini yerdən-yerə vurduğunu da heç kim unutmayıb. Ancaq elə ki, deputat seçilmədi, mandatdan məhrum oldu G.Hacıbəyli hətta öz keçmiş həyat yoldaşının da etiraf etdiyi kimi, 180 dərəcə dəyişdi. Siyasi virusa yoluxmuş bu rəzil qadın deputat olanda ancaq özü haqqında fikirləşirdi. Komfortu, lüks həyatı sevən Gültəkin Milli Məclisə deputat seçildiyi dairə ilə heç əlaqə saxlamır, oradakı əhalinin vəziyyəti ilə maraqlanmır, problemlərin həlli ilə məşğul olmurdu. Onun fikrizikri yalnız və yalnız var-dövlət toplamaq və çirkli əməllərlə məşğul olmaq idi. Bir an o dövrlərdə mətbuatda yazılanlara diqqət etsək, hər şeyi bir daha açıq-aşkar görərik. Belə ki, AXCP-nin orqanı olan "Azadlıq" qəzetinin 2005-ci il 2-3 oktyabr tarixli sayında "Azadlıq" blokunun 96 saylı Goranboy-Naftalan seçki dairəsindən vahid namizədi Elçin Rzayevin müsahibəsində diqqət edək: "...İndi dairənin seçicilərini ən çox bir məsələ maraqlandırır. Onlar Gültəkin Hacıyevanın hansı üzlə yenidən namizədliyini bu dairədən irəli sürməsini başa düşə bilmirlər. Özünü "avropalı xanım" sayan Gültəkin Hacıyeva, görəsən Avropanın demokratik dəyərlərinə niyə sayğı göstərmir? Dünənə qədər YAP-çı olan bu xanım birdən-birə dönüb oldu hər addımda söyüb təhqir etdiyi "Milli Şura"çı. Ancaq Azərbaycan cəmiyyəti ilə arasında dərin uçurum olan "Milli Şura"ya üzv olmazdan əvvəl G.Hacıbəyli sən demə müxalifət düşərgəsində təmsil olunan neçə-neçə təşkilatın qapısını döyüb. Getdiyi qapılardan qovulan G.Hacıbəyli nəhayət ki, antimilli ünsürlərin toplandığı "Milli Şura" da lövbər salıb. Necə deyərlər, qazan dığırlanıb qapağını tapıb.Bu yerdə G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova 14 ay gəlin olduğu müddətində ona qarşı böyük haqsızlıqlar etdiyini bildirərək, deyib ki, o, mənəvi dəyərlərini itirmiş əxlaqsız, sürüşkəndir: "Bu, o Gültəkindir ki, doğma əmisinə "torba" tikdi. Onun əmisi İdris Hacıyevin adına "Emil" MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Doğmasına qarşı nankorluq, xəyanət edən Gültəkin xalqına da, Vətəninə də bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları. Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sair. O, mənəvi dəyərlərini itirmiş əxlaqsızdır. İkiüzlü, sürüşkən, xain, anormal G.Hacıbəyli elə Əli Kərimli, Cəmil Həsənli kimi satqınların, ikiüzlülərin yanıda olar. Belələri ən ağır cəzaya məhkumdur".Bax, simasız, satqın, əxlaqsız buna deyərlər. Doğrudan da, qadının rəzil olması bədbəxtçilikdir. Çamura batmış G.Hacıbəyli pula görə həyə nə demək olduğunu belə anlamır. G.Hacıbəylinin keçmiş qaynanasının dediklərini eşidəndə bir daha bu qadının nə qədər mənəviyyatsız və satqın olduğunun şahidi olursan.Beləliklə, sözümün canı ondadır ki, bu siyasətə qoşulan sosial şəbəkə quldurları heç, əslində, siyasətin nə demək olduğunu belə anlamırlar. Çünki yollarını azıblar. Bax, elə bəla da bundan sonra başlayır. Qudurub quduzlaşırlar. Nəticədə də nə cəmiyyət, nə də ictimai rəy beləl追rini qəbul etmir. Çünki hər kəsə çox gözəl bəllidir ki, G.Hacıbəyli kimi üzüdönüklərdən, yollarını azanlardan fərli adam olmaz...

**Rəfiqə HÜSEYNOVA**

# Multikulturalizmin unikal məkanı - Azərbaycan

***Azərbaycan qədim zamanlardan müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuş, ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı mədəni məkana çevrilmişdir. Tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Qərb fəlsəfi fikrində özünə yer almış multikulturalizm mədəniyyətlərin müxtəlifliyi və çoxçalarlılığını ifadə edir. Azərbaycanda multikulturalizm siyasəti dövlət siyasəti kimi qəbul edilərək Qərb dövlətləri ilə müqayisədə daha səmərəli şəkildə həyata keçirilir. Azərbaycan sivilizasiyalar arasında körpü rolunu oynayan bir dövlətdir və dünya bizim təcrübəmizi öyrənir.***

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb edir. Bu gün artıq ölkələr, xalqlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı bir zamanda əməkdaşlıq, mədəniyyətlərarası dialoq vacib məsələlər sırasındadır. Ölkəmizin bu sahədə həyata keçirdiyi siyasət və əldə etdiyi təcrübə başqa dövlətlər üçün də nümunə göstərilir. Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşadığı məkan olub. Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ümummilli Liderin Azərbaycanda milli azlıqlarla bağlı siyasəti beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanıb.



## MİLLİ-MƏDƏNİ MÜXTƏLİFLİK MƏDƏNİ ZƏNGİNLİK DEMƏKDİR

Hazırda dünya mədəniyyətini çox müxtəlif amillər təhdid edir. Milli özünəməxsusluğun həddən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, eləcə də din mədəniyyətə təzyiq göstərir. Digər tərəfdən isə praktik olaraq dünyanın bütün ölkələrində qloballaşmanın təsiri altında dillər yox olur, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən də tamamilə yox olur. BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanır və mədəniyyətlərarası mübadiləni dərk edərək, daha çox həmrəyliyin bərqərar olmasına cəhd göstərir. Milli-mədəni müxtəliflik mədəni zənginlik deməkdir. Azərbaycan dövləti ölkədəki milli-mədəni müxtəlifliyin qorunub saxlanmasında, inkişafında maraqlıdır və buna dəstək verir. Dünya cəmiyyəti bununla mədəni müxtəlifliyin inkişafına töhfələr verməklə, mədəni irsin qorunması, müxtəlif mədəniyyətlərin nümayəndələri arasında münasibətlərin qurulması vacibliyini həmişə yadda saxlamalıdır.

## HEÇ ZAMAN DİNİ VƏ YA İRQİ AYRI-SEÇKİLİK OLMAYAN ÖLKƏ

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bəyan etdiyi dəyərlər göz qabağındadır. Milli mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir.

Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir sülh, qardaşlıq, qarşılıqlı hörmət şəraitində yaşayır. Burada etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olub. Bu ölkədə heç zaman dini və ya irqi ayrı-seçkilik olmayıb. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib. Ölkə ərazisində yaşayan milli azlıqlar qanunla nəzərdə tutulan hər cür təşkilat yarada bilərlər. Belə təşkilatların hüquqi vəziyyətini Konstitusiya və ya qanunlar tənzimləyir.




## TARİXİ KEÇMİŞİMİZDƏN QALAN MÜTƏRƏQQİ ƏNƏNƏ

Azərbaycanın müxtəlif guşələrində yığcam halda yaşayan 30 sayda millət və etnik qruplardan ibarətdir. Sayı, dil və dinlərinin müxtəlifliyinə baxmayaraq, onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Milli azlıqları təmsil edən mədəni mərkəzlər və birliklərlə bağlı mühüm işlər görülür. Qusar rayonundakı Ləzgi Dövlət Dram Teatrının və Qax rayonunda yaradılmış Dövlət Kukla Teatrının maddi-texniki bazaları dövlətimiz tərəfindən möhkəmləndirilib. Qax rayonunun Əlibəyli kənd Mədəniyyət evində 1981-ci ildə yaradılmış və 1985-ci ildə ”xalq teatrı” adını almış gürcü dram dərnəyinə dövlət statusu verilmişdir. S.Vurğun adına Rus Dram Teatrı ilə yanaşı, Azərbaycan Dövlət Musiqili Komediya, Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Azərbaycan Dövlət Kukla Teatrlarındakı rus bölmələri fəaliyyət göstərirlər. Astara rayon Mədəniyyət evinin ”Sevinc” mahnı və rəqs ansamblının talış milli azlığının adət-ənənələrinin, milli rəqs və mahnılarının təbliği sahəsində rolu vardır. Astarada ”Məhsul”, ”Əkinçi”, ”Şum” bayramları keçirilir.

Bu gün Azərbaycanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst, heç bir manea olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək verilir. Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. Hesablamalara görə, Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Xristianlığın, demək olar ki, bütün cərəyanları ölkəmizdə təmsil olunmuşdur. Belə ki, Azərbaycanda pravoslav, katolik, lüteran və protestant təriqətlərin, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar yaşayır. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Katoliklər daha çox Bakı şəhərində yaşayırlar.

Azərbaycan 2 min ildir yəhudi icması üçün təhlükəsiz sığınacaq və vətəndir. Hazırda Azərbaycanda 7 sinaqoq fəaliyyət göstərir. Azərbaycanla İsrail, azərbaycanlılarla yəhudilər arasındakı unikal əlaqələr və əməkdaşlıq müsəlmanlarla yəhudilərin qarşılıqlı hörmət, əməkdaşlıq, sülh şəraitində birgə yaşaya biləcəyinə inanmayan, yaxud inanmaq istəməyən hər kəsə mesajdır.

Ölkəmizdə yaşayan müxtəlif xalqlar öz dini-milli bayramlarını qeyd edirlər. Bildiyimiz kimi, hər il Qubadakı Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri Roş-xa-Şana bayramını əmin-amanlıq şəraitində qeyd edirlər. Yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı sayılan bu bayram günündə qəsəbə sakinləri sinaqoqa gedərək dualar oxuyur, ehtiyacı olanlara əl tutur, bayram süfrəsi arxasında toplaşaraq Tanrıdan günahlarının bağışlanmasını diləyirlər. Onuncu gündə isə bütün sutkanı ac qalmaqla oruc tutur və müqəddəs ”Yom Kipur” gününü qeyd edirlər. Roş-xa-Şana bayramı dünyanın müxtəlif məkanlarında yaşayan bütün yəhudilər təntənəli şəkildə keçirir. Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin yığcam yaşadığı nadir məkandır. ”Qafqazın Yerusəlimi” adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Bu gün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşaması fikirlərimizi əsaslandırır. Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, multikulturalizm ənənələri və tolerantlıq Azərbaycan xalqının həyat tərzi, mənəvi-əxlaqi dəyəri, Azərbaycan Respublikasının siyasətidir.

Dövlətin din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulmuşdur. Din sahəsindəki siyasət beynəlxalq hüququn prinsiplərinə və normalarına, dövlətimizin qoşulduğu beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Dünyada baş verən böhranlardan və münaqişələrdən uzaq olmaq, birgə tədbirlərin görülməsinə nail olmaq, terrorizmə, münaqişələrə qarşı səmərəli mübarizə aparmaq üçün vətəndaşlıq prinsipləri, insan haqları, bərabərlik amillərini hər zaman diqqətdə saxlayan Azərbaycan terrorizm aktlarını törədənlərə, irqi və dini zəmində münaqişə yaradanlara qarşı barışmaz mövqeyini ortaya qoyur, islam dünyasının həmrəyliyinə töhfəsini verir. Azərbaycandakı mövcud vəziyyət onu deməyə əsas verir ki, ölkəmizdə multikulturalizmin alternativi yoxdur. Azərbaycan bir çox millətlərin və konfessiyaların birgə əmin-amanlıq şəraitində yaşadıqları unikal yerdir və bu ənənələrin tarixi kökləri var.

***Zümrüd BAYRAMOVA***

# Kişilər özlərini niyə qısırlaşdırır?

**Bildiyimiz kimi, artıq uzun zamandır ki, qadınlar hamilə qalmamaq üçün dərialtı implant, yaxud spiral üçün ginekoloqlara müraciət edir. Bunun maddi durum, yeni uşağın məsuliyyətinə hazır olmamaq, ana olmağa ara vermək və s. kimi bir çox səbəbləri var. Bununla yanaşı, son zamanlar bir sıra kişilər də ata olmamaq üçün qısırlaşdırma əməliyyatına üz tutur. Bəs, nədir bu əməliyyat? Necə baş tutur?**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Buna misal olaraq elə ötən gün qısırlaşdırma əməliyyatı etdirən məşhur türk müğənni Rafet El Romanı misal göstərmək olar. Belə ki, o, vazektomiya əməliyyatı (uşaq istəməyən cütlüklərdə toxum (sperm) kanallarının bağlanması) olunub. Bu barədə sənətçi özü mediaya bildirib. Rafet El Roman bu əməliyyatı övladı olmaması üçün etdirdiyini bildirib: "Oğlum Edvan dünyaya gələndə qızlarım psixoloji cəhətdən çətin dövr keçirdilər. Bu barədə mənə anam da xəbərdarlıq etmişdi. Mən öz seçimimlə, qızlarım, qardaşlarım və anamla danışaraq bunu tibbi yolla həll etdim. Övladlarımın, ailəmin rahatlığı üçün bunu könüllü şəkildə həyata keçirdim".



Vazektomiya kişilərdə sperma hüceyrələrinin xayalardan toplandığı nahiyələrə keçidinin cərrahi üsullarla qalıcı şəkildə pozulması prosesidir. Bu prosedurdan sonra boşalma zamanı mayenin xarici görünüşündə heç bir dəyişiklik olmur. Amma mayedə sperma hüceyrəsi olmadığı üçün hamiləlik baş vermir.

Kişi reproduktiv sisteminin əsas orqanı olan xayaların ən önəmli vəzifəsi hamiləlik üçün lazım olan sperma istehsal etməkdir. İstehsal edilən sperma "vas deferens" adlanan kanallarla daşınır və penisin ucuna qədər açılan uretraya çatır. Bu zaman prostat vəzindən ifraz olunan maye onun içinə qarışdırılır və orqazm zamanı penisdən atılır. Orqazm zamanı kişidən ayrılan maye xayalar tərəfindən deyil, prostat vəzi tərəfindən istehsal olunur.

Spermanın istehsal yeri olan xayalardan sidik kanalına daşınmasına maneə törədilməsi spermanın olmaması, yəni azospermiya ilə nəticələnir. Obstruktiv azospermiya adlanan bu vəziyyət kişi sonsuzluğunun səbəblərindən biridir. İstənməyən hamiləliyin qarşısını almaq üçün bu maneə bilərəkdən cərrahi üsullarla edilirsə buna vazektomiya deyilir. Kişilərdə boruların bağlanması olaraq təyin olunan bu proses doğum nəzarət üsulu hesab edilir.



## Kimlər üçün uyğundur?

Bu gün ABŞ-da hər il yarım milyondan çox kişi əlaqədə olduğu qadınlarda arzuolunmaz hamiləliyin qarşısını almaq üçün vazektomiyanı seçir. Dünyada edilən vazektomiyaların ümumi sayının 30 milyondan çox olduğu təxmin edilir. Vazektomiya üçün heç bir tibbi maneə olmasa da, bəzi şəxslər bu prosedur üçün daha yaxşı namizədlərdir.



- Ailəsini tamamlamış, digər kontraseptiv üsulları nəzərdən keçirmiş və daha uyğun bir üsul seçməmiş cütlər.
- Nizamlı və sabit münasibətdə olanlar, doğum prosesinin sonuna yaxınlaşan cütlüklər.
- Gələcəkdə uşaq sahibi olmaq istəmədiklərinə əmin olan orta yaşlı subay kişilər.
- Əlaqədə olduğu qadınlarda arzuolunmaz hamiləliyin qarşısını almaq istəyən kişilər.

## Üstünlükləri nələrdir?

Ən əhəmiyyətli üstünlüyü onun qalıcı və ömürlük doğuma nəzarət üsulu olmasıdır. Bundan əlavə, hamiləlik qorxusu olmadığı üçün seks daha zövqlü ola bilər.

Prosedur zamanı bağlanan damarların sperma istehsalı ilə heç bir əlaqəsi olmadığı üçün prosedurdan sonra kişi spermasının miqdarında və görünüşündə heç bir dəyişiklik olmur. Sperma və hormon istehsalı heç bir dəyişiklik olmadan davam etdiyi üçün cinsi istək, güc və aktivlikdə heç bir dəyişiklik olmur. İstehsal olunan sperma bədən tərəfindən sorulur və məhv edilir.



## Mənfi cəhətləri nədir?

Bu, daimi bir üsuldur. Gələcəkdə yenidən uşaq sahibi olmaq istənildikdə, cərrahiyyə ilə kanalların yenidən açılması hər zaman uğurlu olmaya bilər. Belə hallarda cərrahi sperma axtarışı və mikroinyeksiya tələb olunur.

Sperma hüceyrəsinin əmələ gəlməsi və spermadan xaric olması üçün təxminən 72 gün lazımdır. Buna görə də qorunma vazektomiyadan dərhal sonra başlamır. Ardıcıl 2 sperma analizində qorunmanın tam olduğu, yəni spermadakı sperma sayının sıfıra endiyi göstərilməlidir. İlk sperma müayinəsi üçün 16-18 həftə ərzində 20 boşalma gözlənilməlidir. Çox nadir hallarda spermada spermanın sıfırlanması daha yavaş ola bilər və 3-4 ilə qədər tələb oluna bilər. Bəzi çox nadir hallarda bağlanmış və kəsilmiş kanallar yenidən birləşə bilər.

## Prosedur necə həyata keçirilir?

Vezektomiya uroloqlar tərəfindən lokal anesteziya altında aparılır. Bu, çox asan və təhlükəsiz bir prosesdir. Xayalar kişi bədənindən kənarda skrotum adlanan torbalarda yerləşir. Lokal anesteziyadan sonra xaya dərisində kiçik bir kəsik edilir və damarlar aşkar edilir, dəridən çıxarılıb bağlandıqdan sonra qısa bir parça kəsilir və qalan uclar koteriya ilə məhv edilir. Prosedur təxminən 30 dəqiqə çəkir və xəstəxanaya yerləşdirmə və ya istirahət tələb etmir. Sonrakı dövrdə ağrıkəsici tələb edəcək qədər şiddətli ağrılar ola bilər.

## Risklər və ağırlaşmalar

Hər hansı cərrahi əməliyyatda olduğu kimi, vazektomiyada da ağırlaşma riski var:

-Allergik reaksiya: İstifadə olunan anestezik pasientə qarşı allergiya yarada və bunun nəticəsində müvəqqəti qaşınma ola bilər.

ARAŞDIRMA

Ardı Səh. 11

# Kişilər özlərini niyə qısırlaşdırır?

Əvvəli Səh. 10

- Qanaxma: Prosedurdan sonra qanaxma və şişkinlik ola bilər.

-Xroniki ağrı: Nadir hallarda əməliyyatdan sonra yığılan maye və sperma səbəbiylə xayalarda ağrı ola bilər. Bu vəziyyət 6 ay ərzində özözünə yox olur.

- Hematoma: Xayada qanaxma dayanmazsa, qan laxtalanaraq kütlə əmələ gələ bilər. Nadir hallarda, ikinci cərrahi əməliyyat tələb oluna bilər.

-İnfeksiya: Nadir hallarda antibiotik müalicəsi tələb edən infeksiyalar inkişaf edə bilər.

-Ağrı: Ağrı kəsici tələb edəcək qədər şiddətli ağrı ilk 24 saatdan sonra nadir hallarda görülür

-Cinsi istəksizlik və çətinlik: Çox nadir rast gəlinən bu vəziyyət fiziki deyil, psixolojidir.

Keçmişdə vazektomiyadan sonra prostat xərçəngi inkişaf riskində cüzi artım ola biləcəyi irəli sürülsə də, ən son araşdırmalar vazektomiya ilə prostat xərçəngi arasında heç bir əlaqənin olmadığını göstərir.

**Xəbərdarlıqlar:**

Gələcək uşaq arzusunun mümkünlüyünü diqqətlə nəzərdən keçirin. Həyat yoldaşınızın da razılığını almağınızdan əmin olun. Qoruma əməliyyatdan dərhal sonra başlamır. Sperma müayinəsində azospermiya yaranana qədər qorunma üsulu tətbiq etmək lazımdır.





## Dünyada bu barədə vəziyyət necədir?

Ötən il ABŞ-da kişilər bu əməliyyata böyük maraq göstərirdi. Kişilər arasında ”TikTok”da trend olan bu əməliyyat milyonlarla kişi tərəfindən ”vazektomiya” və ”snipsniphooray” etiketi ilə paylaşılırdı. Belə ki, bir çox gənc evli və subay kişilər videolarda bunu niyə etdiklərini təsvir edirlər. ”TikTok”da ”vasektomiya” həştəqi ilə 500 milyondan çox paylaşım paylaşılıb. Kişilər ”vazektomiya” əməliyyatında öz təcrübələrini bölüşməyə başlamışdılar.

Hamiləliyin qalıcı şəkildə qarşısını almaq üçün kişinin spermasını daşıyan boruların bağlanması mənasını verən əməliyyatın məzmunu böyük sürətlə paylaşılır. Etiketdə cərrahiyyə əməliyyatı keçirərkən özlərini lentə alan kişilər, eləcə də həyat yoldaşlarının sağalma müddətində onlara qulluq paketləri hazırlayan qadınlar göstərilir.



Nyu-Cersi ştatından olan 28 yaşlı komediya ustası Mayk Pridgen əməliyyatını videoya çəkərək TikTok-da yerləşdirib. Əməliyyatın düşündüyündən daha yaxşı tamamlandığını ifadə edən Pridgen, ”Düşündüyüm qədər pis olmadı. Mən bu dünyaya uşaq sahibi olmaq istəmirəm” deyib. Məşhur komediyaçının milyonlarla izlənilən videoları qısa zamanda müsbət reaksiyalar toplayıb.



Bu əməliyyatı keçirən insanların yeganə səbəbi ”bu dünyaya uşaq gətirmək istəməmək”dir. Arvadlarının istəyi ilə özlərini sterilizasiya etdirən kişilər də çoxdur.

”Lufalueth” adlı istifadəçi adı olan TikTok istifadəçisi 4 övladı olan və həyat yoldaşının istəyi ilə özünə vazektomiya etdirən başqa bir istifadəçinin əməliyyatdan sonrakı videosuna şərh verib ki, o da bu yaxınlarda vazektomiya etdirib və bunu etdiyinə görə xoşbəxtdir: ”Həqiqətən o qədər də ağrılı deyil. Mən bunu xanımım üçün etməkdən xoşbəxtəm. Tərəddüd belə etmədim. Vazektomiya uşaq sahibi olmaqdan daha ucuzdur”.

Bu yaxınlarda vazektomiya əməliyyatı keçirmiş başqa bir istifadəçi yalnız ilk həftənin çətin olduğunu bildirib: ”Bir həftə əvvəl, sadəcə, vazektomiya etdim. O qədər də pis deyil. İlk 3 gün ən pis gün idi. İndi demək olar ki, tamamilə sağalmışam”.

Kişilərin vazektomiya edilməsini dəstəkləyən Em Sparkle adlı qadın istifadəçinin şərhi belə olub: ”Kişilər vazektomiya ilə bağlı rahatlamalıdırlar. Çünki vazektomiya onlar üçün bizim qadın müayinələrindən daha ağrısızdır”.

Bənzər bir şərh Crazycoffeehouse istifadəçisindən qadınların borularının bağlanması əməliyyatının daha əziyyətli olması ilə bağlı gəlib: ”Ərim boruların bağlanması əməliyyatımın mənim üçün nə qədər çətin olduğunu biləndə, əməliyyatımı ləğv etdi. İlin əvvəlində özünə vazektomiya etdirəcək”.

Qadınlarda doğuşa nəzarət həbləri, spiral və ya hormon inyeksiyaları kimi uşaqlıqdaxili vasitələr hamiləliyə nəzarət etməyə kömək edir, kişilərdə isə prezervativlər cinsi əlaqə zamanı hamiləliyin qarşısını alır. Ancaq bunlar 100 faiz effektiv deyil və aşağı faizlə də olsa, həmişə hamiləlik riskini daşıyır. (Doğuşa nəzarət həbini müntəzəm qəbul etməmək, prezervativi cırmaq kimi səbəblər və s.)

”Kişilər üçün ən etibarlı doğuşa nəzarət üsulu vazektomiyadır” deyən Urologiya Mütəxəssisi Kaan Aydos mövzu ilə bağlı ətraflı açıqlamalar verib.

Urologiya Mütəxəssisi Kaan Aydos, ”Vazektomiya xayadan sperma daşıyan və vas deferens olaraq bilinən kanalların ləğv edilməsidir. Dünyanın əksər ölkələrində bu çoxgeniş yayılsa da, ölkəmizdə 1000 kişidən yalnız 1-i vazektomiyaya üstünlük verir: Bunun əsas səbəbi isə kifayət qədər məlumatın olmamasıdır. Vazektomiyanın effektivliyi demək olar ki, 100 faizdir” deyib.

Kaan Aydos vazektomiyanın necə edildiyini izah edib: ”Vazektomiya xayaların bir az üstündə, xaya kisəsinin üzərində kiçik dəri kəsikləri ilə aparılır. Buradan sperma kanalına çatılır, ortasından kəsilir və ucları bağlanır. Sonra dəri bir və ya iki tikişlə bağlanır. Xəstə eyni gündə ayağa qalxıb gündəlik həyat fəaliyyətinə qayıda bilər. Əməliyyatın heç bir ciddi əks təsiri olmasa da, qanaxma və hətta infeksiya baş verə bilər. Lakin indiki müasir şəraitdə hər hansı əks təsirlərin yaşanmasından söhbət gedə bilməz”.

*Ayşən Vəli*

# An yaxınlaşır

## *Azərbaycan Qarabağın bütün ərazilərinə tam nəzarəti bərqərar edəcək*

Qarabağın hələ Bakının nəzarətində olmayan hissəsində ermənilər yenə "qəzəb dalğası" yaradıblar. Düzdür bu "dalğa" yalnız sosial şəbəkə və mətbuat üzərindən aparılır və elə bir effek yaradılır ki, guya məsələ ermənilərin xeyirinə artıq bitmək üzrədir. Hətta dünyada "ədalət carçısı" titulunun mütləq sahibi, "qara qitə"ni "ag günə" çıxaran Fransanın ən böyük şəhərinin, baş kəndinin meri İdalqo xanım Parisin dərdini sərini elə parislilərlə baş-başa qoyub, utanmadan, çəkinmədən, zərrə qədər də ar etmədən Ermənistanla Azərbaycanın şərti sərhədinə gəlib. Erməniləri arxayın edib ki, "arçaxlılara" yeməyi öz əlimlə yedirtməsəm başımda olmayan ləçəyim mənə haram olsun. Arzularını ərz edəndən sonra düz sərhədin yaxınlığında afrikalılardan oğurladığı bədəvi çadırını da qurub.









Xanım İdalqo çadırında oturmağında olsun, sizə xəbər verək yenə erməni mətbuatından. Yazıblar ki, guya "Azərbaycan sərhədçiləri erməni millətindən olan üç gənci sərhəd keçid məntəqəsində oğurlayıblar". Əvvəla, hadisə hamının gözü qarşısında baş veribsə, bu, oğurluq niyə sayılsın? İkincisi, ermənilər bundan ibrət götürməli, bir ölkənin atributlarını təhqir etmənin hansı cinayət məsuliyyəti daşıdığını bilməli və onu sırğa edib qulaqlarından asmalıdırlar ki, bir daha belə hadisələrlə rastlaşmasınlar. O cümlədən, bütün separatçılar da bilməlidirlər ki, törətdikləri cinayətlər cəzasız qalmayacaq. Üç erməni əsilli futbolçunun göz altına alınmasından dərhal sonra Azərbaycanın prokurorluq orqanları mətbuat vasitəsilə məlumatı təsdiqlədilər.

Üç sakininin Azərbaycan sərhədçiləri tərəfindən saxlanılması ilə əlaqədar Qarabağdakı separatçı qurumun qondarma rəhbəri Arayik Arutyunyan ehtirasları sakitləşdirməyə çalışsa da, indi onun özü hədəfə çevrilib. Çünki ona rəqib olanlar fürsəti fövtə verməyib gərginliyi bir az da körükləməkdədirlər. Amma Bakının Qarabağ məsələsini həll etmək istəyinə heç kim mane ola bilməz. Bu məqsədə çatacağımız gün çox da uzaq görünmür. Qarabağdakı və Ermənistandakı ermənilər Azərbaycan sərhədçilərinin qanuni hərəkətini adam oğurluğu adlandırıblar. Azərbaycan tərəfi isə bəyan edib ki, istintaqda iştirak edən şəxslərin müdafiə hüququ təmin edilib. Dindirilmə zamanı onlar bu əməli törətdiklərini etiraf edərək, səmimi peşmançılıq çəkdiklərini və gələcəkdə belə hərəkətlərə yol verməyəcəklərini bildiriblər. Təqsirləndirilən şəxslərin yaşını və səmimi etirafları ilə tövbələrini nəzərə alaraq, cinayət-prosessual qanunvericiliyin tələblərinə riayət olunmaqla, humanizm prinsipi tətbiq edilərək, barələrində cinayət təqibinə xitam verilib.

Laçın yolunda saxlanılan Alen Sarkisyan, Vahe Hovsepyan və Levon Qriqoryanın hərəkəti guya əvvəlcədən razılaşdırılıb və Rusiya sülhməramlı qüvvələrinin müşayiəti ilə həyata keçirilib. Məgər bunun nəyəsə dəxli varmı, bu, cəzanın yüngülləşməsinə zərrə qədər də təsir göstərə bilərmi? Əlbəttə yox. Hansı cəzanı vermək, yaxud əfv etmək yalnız Azərbaycan tərəfinin humanizminə qalıb ki, bunu da etdi. Onların gənc olmasını və bir daha oxşar hadisə törətməyəcəklərini nəzərə alan Prokurorluq hər üç gənci 10 gün həbs cəzasına məhkum edib.

Ermənistan və Rusiya mətbuatı ənənəvi olaraq yenə anti-Azərbaycan təbliğatını aparmaqdadırlar. Mətbuatda tez-tez 9 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat xatırladılır və o da əlavə edilir ki, bu sənədin 6-cı bəndinə əsasən, Laçın yolu vasitəsilə Ermənistanla Qarabağ arasında maneəsiz əlaqə yaradılmalıdır. Amma ağıl dərsi keçməkdən usanmayan erməni mətbuatının yadına həmin sənədin digər bəndlərini də salmaq istərdik. Orada həm də yazılıb ki, Rusiya sülhməramlılarının bölgəyə gəlməsi ilə paralel olaraq Ermənistan silahlı qüvvələri də Qarabağı tərk etməlidirlər. Həmçinin 35 minlik azərbaycanlı məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar, Naxçıvanla Azərbaycanın qərb rayonlarını birləşdirən Zəngəzur dəhlizi barədə isə Ermənistan ümumiyyətlə fikirləşmir.

Xankəndidə ermənilərin mitinqi keçirilib. Şəhərin mərkəzi meydanına toplaşanlar Arayik Arutyunyandan son hadisələrə reaksiya verməsini tələb ediblər. Qondarma separatçı qurumun qondarma "parlament"ində çıxış edən baş separatçı altı saat davam edən iclasda erməniləri üzən xəbərlər verib. Bildirib ki, tək qalmışıq, heç kim kömək etmək istəmir. Arutyunyan meydana toplaşanları sakitləşdirməyə çalışsa da, onlara deyəcək sözü olmayıb. Mitinqçilər onu fitə basıb, hətta ona getməyi tövsiyə ediblər. "Məni təhqir edə, tənqid edə bilərsiniz, amma başa düşməyinizi istəyirəm ki, biz hər şeyə - fövqəlgücələrə, BMT-yə inandığımız üçün bu vəziyyətə gəlmişik", - deyə Arayik Arutyunyan düşdüyü çətin vəziyyəti şərh edib.

Qarabağda baş verən son hadisələr bir daha təsdiq edir ki, Azərbaycan son nəticədə bu bölgəyə tam nəzarətin yaradılmasına nail olmaq istəyir və təzyiqləri azaltmaq niyyətində deyil. Bu, Azərbaycan tərəfinin nəinki Təhlükəsizlik Şurasının iclasının Bakının xeyrinə başa çatdırdı, həm də Qarabağ istiqamətində hərəkətlərin hələ də ciddi müqavimətlə qarşılaşmadığına bir daha əmin olmağa imkan verdi. Ermənistan və İrəvanı dəstəkləyən dövlətlər Azərbaycanın təzyiqlərinə şifahi bəyanatlardan başqa heç nə ilə qarşı çıxa bilmirlər. Avqustun 29-da Bakı bu dəfə "kök" şəklində daha bir böyük addım atdı. Azərbaycandan 40 ton humanitar yardım daşıyan yük maşınları Ağdamdan keçməklə Xankəndiyə yola salınıb.

Çərşənbə axşamı axşam saatlarında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rayona göndərdiyi maşınlar indiki bəlli nöqtəyə çatsa da, irəli gedə bilməyib, yükün separatçılar tərəfindən qarşısının alındığını bildirib.

Azərbaycan üçün Qarabağ ermənilərinə humanitar yük göndərmək qərarı İrəvanla informasiya qarşıdurmasında qalib gəlmək və Ermənistan hakimiyyətinin bütün dünyaya bəyan etdiyi "blokada"nın əslində olmadığını göstərməkdir. Bundan əlavə, Bakı üçün Qarabağın onun daxili işi olduğunu göstərmək prinsipial əhəmiyyət kəsb edir. Müvafiq olaraq, bu ərazi Azərbaycanın uyğun hesab etdiyi marşrutlarla təmin edilməlidir. İndi məsələ erməni tərəfinin üzərinə düşür. Qarabağdakılar isə humanitar yardımların çatdırılması üçün Laçına alternativ yollardan istifadə etmək niyyətində deyillər. Avqustun 28-də Arayik Arutyunyan əmin edib ki: "Yalnız bir yol olacaq - Laçın yolu, biz başqa yollarla məhsul idxal etməyəcəyik".

"Ağdam-Xankəndi yolu açılandan sonra Laçın yolu da 24 saat ərzində açılacaq". Xəbər verilir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev BBC-yə müsahibəsində deyib. "Yollar nə qədər çox olsa, hamı üçün bir o qədər yaxşıdır", - Prezidentin köməkçisi bildirib. Onun sözlərinə görə, Qarabağdan olan ermənilərə Azərbaycanın digər vətəndaşları kimi dil, mədəni, dini, o cümlədən bələdiyyə hüquqları təklif olunur.

Bir qrup erməni təxribatçının Azərbaycanın göndərdiyi yardım TIR-larının önünü kəsməsi diqqəti Xankəndidəki separatçılara fokuslayıb. Bu təxribatçıların Ruben Vardanyanın dəstəsinə aid olduğu deyilir. Deməli, humaniyar yardımın Xankəndiyə çatmasına sülhməramlılar, dolayısı ilə Rusiya da razı deyil. Diqqət edin, Vardanyan Rusiya sülhməramlılarını müdafiə edən açıqlamalar verib, Rusiya Müdafiə Nazirliyi isə Azərbaycanı Şuşada "atəşkəsi pozmaqda" ittiham edib. Bu, əslində ittihamdır. Paralel olaraq Qarabağdakı qondarma "rus icması"nın Azərbaycanın tərkibində yaşamaq istəmədikləri barədə açıqlama verməsi isə kələfin ucunun açıldığına işarədir. Beləliklə, Ağdam yolunda Azərbaycan TIR-larının önünün kəsilməsinin arxasında rus izinin olduğu ehtimalını ön plana çıxır. Buna həm də, Rusiyanın ikili oyunu deyirlər. Bir tərəfdən Bakının qarşısını kəsə bilmədiyi üçün Laçın yolu ilə yanaşı Ağdam yolunun da açılmasını dəstəkləyir, digər tərəfdən, Vardanyanın dəstəsini oyuna daxil etməklə "erməni əhalisi yardımı qəbul etmir" görüntüsü yaradır. Və bununla da azərbaycanlıların qurduğu çadırla erməni təxribatçıların qurduğu çadır arasında "vasitəçi" kimi bölgədəki mövcudluğuna ehtiyac formalaşdırır. Xankəndi uğrunda mübarizənin yeni mərhələsi artıq başlayıb.

Bu arada Qarabağda yaşayan bəzi erməniəsilli şəxslər onlar üçün aparılan 40 ton unun guya zəhərli olması barədə iddial irəli sürürlər. Azərbaycan Qızıl Aypara Cəmiyyəti bunu gülünc adlandırıb. Cəmiyyətin rəsmiləri bir qrup xarici media orqanının Azərbaycan nümayəndəliklərinin əməkdaşlarına açıqlamasında deyiblər ki, hər kəs həmin mallara baxa bilər. "Bizim məqsədimiz humanitar yardım göstərmək, kömək etməkdir, əlbəttə, məqsədimiz insanları zəhərləmək deyil. Hər kəs həmin mallara baxa, orada sərbəst şəkildə çəkiliş də apara bilər",- qurum rəsmisi qeyd edib.

Ermənilərin Fransa ilə əlbir olub törətməyi planlaşdırdıqları yeni TIR şousuna isə qızğın hazırlıq gedir. İrəvandan yola düşən TIR-ları qarşılamaq üçün Zəngəzurda - Kornidzor kəndində çadırlar qurulub. Bu çadırların "humanitar qərargah" kimi istifadə olunacağı bildirilir.

Qeyd edək ki, bir müddət əvvəl Ermənistanın Azərbaycanla razılaşdırmadan sərhədə göndərdiyi TIR-lar günlərdir orada qalıb. "Humanitar yardım" adı altında törədilən təxribatın növbəti həmləsi isə bu gün başladılıb. Erməni təxribatında Fransa da yaxından iştirak edir.

Beləliklə, Azərbaycan öz vətəndaşı hesab etdiyi Qarabağ ermənilərinə humanitar yardım etmək üçün bütün imkanlara malik olduğunu deyib və sözünü də tutub. Qızıl Aypara Cəmiyyətinin maşınları 40 ton həcmində humanitar yükün Ağdam-Xankəndi yolundan keçməklə Xankəndiyə göndərmək niyyətindədir. Amma Əsgəran yaxınlığında rus sülhməramlıları, bir az irəlidə isə erməni separatçıları başlanan prosesə, yükün ünvanına çatdırılmasına əngəllər törədirlər. Buradan da belə çıxır ki, Ermənistan və onun Fransa kimi havadarlarının "humanitar fəlakət"lə bağlı apardıqları kampaniya yalan və uydurmadır. Çirkin siyasət terrorçu-separatçı qurumun girovundakı ermənilər üzərindən aparılır. Belə burasındadır ki, "humanitar fəlakət" ssenarisinin tərtibçisi, təşviqçisi və realizə edəni baş təxribatçı Fransadır. Rəsmi Paris öz rolunu çox "məharətlə" ifa edir. Bir tərəfdən sülh təşəbbüsü görüntüsü yaradır, əslində isə Ermənistan üzərindən Cənubi Qafqaza soxulmaq üçün min bir hiylə işlədir.

**V.VƏLİYEV**

# Böyük regional və beynəlxalq əhəmiyyətli layihə - Zəngəzur dəhlizi

**Bu gün Azərbaycanın əsas geostrateji hədəflərindən biri Zəngəzur dəhlizinin açılmasıdır. 44 günlük Vətən müharibəsində Qələbədən sonra siyasi gündəmə gətirilən Zəngəzur dəhlizi məsələsi bundan sonra bütün regionun inkişafını şərtləndirən əsas amillərdən biri kimi qiymətləndirilir. Ümumiyyətlə, bu dəhlizin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişində əhəmiyyətli rol oyanayacaq və ən mühüm məsələ olan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.**




Qeyd edək ki, bu günlərdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları Zəngəzur dəhlizinin açılması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb. 15 QHT rəhbərinin imzaladığı sənəddə qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası 30 ildən çoxdur blokada şəraitində yaşayır. Naxçıvan əhalisi blokadaya görə 15 ilə yaxın qazsız qalıb, hətta elektrik enerjisi olmayıb. Azərbaycanın əsas hissəsindən gələn enerji xətləri Ermənistan tərəfindən kəsilib. Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən dəmir yolunun keçdiyi Zəngəzur dəhlizi 1992-ci ildən birdəfəlik bağlanıb. Lakin ötən müddətdə beynəlxalq birlik Naxçıvanın dinc sakinlərinin problemlərinin, eyni zamanda, blokadanın aradan qaldırılması üçün heç bir addım atmayıb və Ermənistana bu məsələdə heç bir təzyiq etməyib. Niyə bu illər ərzində bizim haqq səsimiz eşidilməyib?

Sənəddə beynəlxalq birliyin nəzərinə çatdırılır ki, son günlərdə "humanitar böhran" şousu ilə Ermənistandan Qarabağa nəzarətsiz dəhliz tələb edən Ermənistan və onun himayədarları işğalçı dövlətin 31 ildir ki, Naxçıvanı blokadada saxladığını tamamilə unudur. 2020-ci ildə 44 günlük müharibədən sonra imzalanmış 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına əməl etmir, Zəngəzur dəhlizinin açılması istiqamətində heç bir tədbir görmür. Müraciətdə də yer aldığı kimi, Zəngəzur dəhlizi açılmalı, blokada aradan qaldırılmalıdır. Dünya birliyi Ermənistanı Zəngəzur dəhlizi layihəsini icra etməyə məcbur etməlidir. Çünki bu dəhlizin böyük regional və beynəlxalq əhəmiyyəti var.







Belə ki, Zəngəzur dəhlizi ilə həm də Avropaya enerji ixrac edilməsi nəzərdə tutulur. Ağcabədi 330 kV-luq yarımstansiyasının tikilməsi, bu xəttin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana çəkilməsi və həmin xətt vasitəsilə elektrik enerjisinin Türkiyəyə, oradan da Avropa bazarına ixrac edilməsi məsələsi gündəmdədir. Ən önəmlisi odur ki, bu dəmiryol xətti gələcəkdə Azərbaycandan keçməklə Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək. Bu da öz növbəsində Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək.



Göründüyü kimi, Zəngəzur nəqliyyat dəhlizi ölkəmizin ərazisindən keçməklə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsinə çevriləcək. Bu dəhliz, həmçinin qardaş Türkiyə Respublikası üçün önəmli iqtisadi imkanlar tanıyacaq. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu ilə hərəkəti reallaşdıracaq. Şübhəsiz ki, bu da öz növbəsində ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və qardaş ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək. Aydındır ki, bu, təkcə Azərbaycan, Türkiyə üçün deyil, elə Ermənistanın özü üçün də sərfəli yoldur. Təbii ki, bu gün Azərbaycanın Gürcüstan, Türkiyə və Rusiya vasitəsilə Qara dəniz limanlarına çıxışı var, digər tərəfdən İran ərazisindən də istifadə edilir. Ermənistanın isə belə bağlantıları yoxdur. Bu baxımdan Zəngəzur dəhlizinin açılması Ermənistan üçün daha xeyirlidir. Belə ki, təklif və tələblərində beynəlxalq hüquqa əsaslanan, tarixi ərazisində yerləşən Zəngəzur dəhlizinin bərpasına çalışan Azərbaycanın bu niyyəti bölgədə sabitlik yaradacaq. Bu əminliyi yaradan amil isə Qarabağın və Zəngəzurun yenidən qurulması, işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərinin sürətlənməsi, Zəngilanda, Füzulidə açılan və Laçında tikintisi 2024-cü ildə başa çatdırılacaq Beynəlxalq Hava limanlarıdır. Bütün bunların fonunda sözügedən dəhlizin açılmasını istəyən və bu xüsusda əməli addımlar atan ölkələrin sayı getdikcə artmaqdadır. Xüsusən də aparıcı Qərb dövlətləri, eyni zamanda Çin və Rusiya Zəngəzur dəhlizi məsələsində indi daha çox maraqlıdırlar.

Trans-Avrasiya Yük Daşımalarının Beynəlxalq Koordinasiya Şurasının baş katibi Genadi Bessonov mətbuata müsahibəsində bildirib ki, Zəngəzur dəhlizi müxtəlif seqmentlərdən ibarət olmaqla, Çin ilə Avropanı birləşdirəcək. Bu layihədə dünyanın iqtisadi nəhəngi hesab olunan Çinin xüsusi marağı var və Orta Asiya respublikaları ilə birlikdə sammit keçirib dəmir yolu xəttinin çəkilməsi barədə müqavilə imzalaması da təsadüfi xarakter daşımır. Çin Avropa ilə ixrac-idxal əməliyyatlarını daha da genişləndirmək üçün qısa, təhlükəsiz və ucuz başa gələn yol axtarışındadır. Azərbaycanın həyata keçirməkdə israrlı olduğu Zəngəzur dəhlizinin də Çin tərəfindən dəstəklənməsi təsadüfi deyil. Gələcəkdə yüklər qatarla Çindən çıxaraq Qırğızıstan-Özbəkistan-Qazaxıstan-Azərbaycan-Türkiyə üzərindən keçərək Avropaya və əks istiqamətə daşınacaq.

***Nigar Orucova***

# Fransa dünya birliyindən təcrid olunur










44 günlük Vətən Müharibəsində Azərbaycanın parlaq qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsini Ermənistan və havadarları hələ də rahatlıqla həzm edə bilmirlər. Hansısa tədbirlər görüb, vəziyyətdən çıxmağa da cəsarət göstərmirlər. Çünki anlayırlar ki, "Dəmir yumruq" yenidən işə düşsə, ümumilikdə Ermənistan dövlət müstəqilliyini itirə bilər. Ona görə də, ara-sıra təxribatlar törətməklə işlərini yekunlaşdırmış hesab edirlər. Əsasən də bu kimi təxribatlar "humanitar yardım" şousu altında davam edir. Bəllidir ki, iyulun 25-dən Fransanın dəstəyi ilə Ermənistan TIR-ları sərhədə toplayıb, "yardım şousu" təşkil edib. Azərbaycan isə qətiyyətlə bəyan edib ki, Rusiya sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərə malların daşınması üçün Ağdam-Xankəndi yolu istifadə oluna bilər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun sözlərinə görə, yolun texniki və təbii göstəriciləri, xüsusilə işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaratdığı halda, özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən imtina etmələri tamamilə başadüşülən deyil: "Burada məqsəd siyasi şou və siyasi möhtəkirlikdən başqa bir şey deyil". Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Aİ ölkələrinin, həmçinin Türkiyə, ABŞ və İsveçrə səfirlərinin iştirakı ilə keçirilən görüşdən sonra qeyd edib ki, teatral səhnələr və yük maşınlarını nümayiş xətrinə Laçın yoxlanış məntəqəsinə gətirməkdənsə, Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməli, öz qüvvələrinin elementlərini Azərbaycanın Qarabağ regionundan çəkməli və qanunsuz marionet rejimin maliyyələşdirməsini dayandırmalıdır. Prezidentin köməkçisi onu da qeyd edib ki, beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolunun istifadəsi və Qarabağın erməni sakinlərinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın siqnal göndərməlidir. Hikmət Hacıyevin fikrincə, Ermənistanın Ağdam yolundan imtina edərək yalnız Laçın yolundan istifadədə israr etməsi və məsələni siyasiləşdirməsi qəbuledilməzdir.

### Separatçılar növbəti təxribat törədə bilər

Hadisələrin inkişafı isə təsdiq edir ki, Xankəndidəki separatçılar Azərbaycanın humanist davranışından nəticə çıxarmaq istəmirlər. Daha geniş şəkildə təxribatlar törətməklə bir növ idarəolunmaz terrorçular olduqlarını nümayiş etdirdilər. Azərbaycan dövləti isə hələ ki, xeyirxah davranır, humanistlik göstərir. Ölkəmiz avqustun 28-də daha bir xeyirxahlıq göstərdi: Acından ölməyə hazırlaşdıqları iddia edilən Xankəndidəki ermənilərə Azərbaycan Qırmızı Aypara Cəmiyyətinin xətti il 40 ton un çatdırmağa çalışıb. Bu xeyirxah addım ermənilərə və Fransa kimi təxribatlara rəvac verən qüvvələrin "Xankəndidəki ermənilər blokadadır" cəfəng iddialarına tutarlı və əhəmiyyətli cavabdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş katibi Ceyhun Mirzəyev jurnalistlərə açıqlamasında bildirib ki, məram və məqsədləri barədə Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının komandirinə məlumat veriblər:"Onlar da öz rəhbərliklərinə məruzə etdilər. Onlar rəhbərliklərinin verdiyi qərarı bizimlə bölüşmək üçün vaxt istədilər". Lakin ilkin məlumatlara görə, Xankəndidəki separatçılar humanitar yardımı qəbul etməyəcəklərini bəyan ediblər. Hətta aqressivlik nümayiş etdirərək, Ağdam-Xankəndi yoluna beton piltələr düzmüş, bununla kifayətlənməyərək rus sülhməramlılarının üzərinə hücuma çəkərək bir əsgərə bədən xəsarətləri yetirmişlər. Vəziyyətin bundan sonra daha da gərginləşəcəyi və ermənilərin təxribatlar törədəcəkləri ehtimal olunur. Siyasi təhlilçilərin gəldikləri qənaətə görə, Xankəndidəki ermənilər terrora həvəsləndirən Fransanın dövlət nümayəndələridir. Xüsusilə də, Fransa prezidenti E.Makronun ermənilərin hər cür təxribatçı hərəkətlərini dəstəkləməsi Qarabağdakı separatçıları ruhlandırıb. Fransanın Paris və digər şəhərlərindən Xankəndinə "humanitar yük" adı altında planlaşdırılan təxribat da əvvəlcədən təşkil olunub. Belə ki, Fransadan yola salınan maşınlar avqustun 30-da Laçın yolunun girişində olacaq və burada Ermənistan tərəfindən göndərilmiş maşın karvanına qoşulacaq. Məlumata görə, Paris meri Ann Hidalqo karvanını müşayiət etmək üçün avqustun 30-da Ermənistana gələcək.

### Paris meri ermənilərə yol göstərənlik edir

Yazını hazırlayarkən öyrənə bildik ki, artıq 10 yük avtomobili Ermənistana çatıb və İrəvandan Sünik vilayətinin Kornidzor kəndinə doğru yola düşüb. Bununla bağlı Ermənistan mediası, həmçinin avtomobillərin İrəvanda Respublika Meydanından yola düşməsinin görüntülərini yayıb. Bildirilir ki, humanitar yüklə birgə Parisin meri Ann İdalqonun da içərisində olduğu fransalı nümayəndə heyəti də Laçın yoluna gedir. Əminliklə demək olar ki, ermənipərəst Paris meri Ann Hidalqo ikiüç gün Laçın sərhəd keçid məntəqəsi yaxınlığında vurnuxandan sonra kor- peşman geri qayıdacaq. Çünki Azərbaycan sərhədçiləri onun sərhədə yaxın düşməsinə belə imkan verməyəcək. Paris meri Ann Hidalqo İrəvana çatmamış Fransa prezidenti E.Makron Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə zəng edib. Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.Məlumata görə, telefon danışığı əsnasında regiondakı vəziyyət, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması məsələsi müzakirə olunub.

Azərbaycan Prezidenti bildirib ki, Ağdam-Xankəndi yolunun istifadəsinə məqsədyönlü şəkildə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən süni əngəllər yaradılır və bundan siyasi manipulyasiya məqsədilə istifadə edilir: "Ermənistan və qondarma rejim Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Ağdam-Xankəndi yolu ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Həmçinin Ermənistan rəhbərliyi Azərbaycan tərəfi ilə razılaşdırmadan dövlət sərhədi istiqamətində humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər gətirib ki, burada məqsəd siyasi möhtəkirlikdir. Azərbaycanın Qarabağın erməni əhalisinin təmsilçilərinin reinteqrasiya məsələlərini müzakirə etmək üçün paytaxt Bakıya və Azərbaycanın digər şəhərlərinə dəvət etdiyini, ancaq onların bundan da imtina etdiklərini və məqsədyönlü şəkildə vəziyyətin guya humanitar gərginlik xarakteri daşıdığını təqdim etməyə çalışdıqlarını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər.Eyni zamanda, Prezident İlham Əliyev bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırılması üçün avtomobil karvanının yola düşdüyünü qeyd edib.Prezident Emmanuel Makron vəziyyətin sabitləşdirilməsi və mövcud gərginliyin aradan qaldırılması üçün Fransanın da öz tərəfindən töhfə verməyə hazır olduğunu bildirib. Fransanın və Azərbaycanın aidiyyəti qurumlarının təmaslarının davam etdirilməsini təklif edib.

Göründüyü kimi, dövlətimizin başçısı ilə telefon danışığında E.Makron vəziyyətin sabitləşdirilməsi üçün lazımi addımların atılmasının vacibliyini qeyd edir. Lakin əməli fəaliyyətində ermənilləri qızışdırmağa, onları təxribatlar törətməyə sövq edən addımlar atır. Bu isə siyasətdə qəbul edilmir. Belə demək mümkünsə, ikiüzlülük kimi qiymətləndirilir. Məhz bu baxımdandır ki, dünya birliyi E.Makronu ciddi siyasətçi olaraq qəbul etmir. İtaliya baş nazirinin müavini və daxili işlər naziri Matteo Salvini jurnalistlər qarşısında çıxışında Fransa prezidentini tənqid edib. O, Emmanuel Makronu həyasızlıqda ittiham edib.Makron bundan əvvəl çıxışı zamanı bildirib ki, "İtaliya ötənilki kimi miqrasiya böhranı yaşamır, bunu deyən isə yalan danışır. Apenninə gələn miqrantların xərcləri artıq 5 milyard avronu ötüb. Əgər bu, həyasız prezident Markon üçün problem deyilsə, biz onu təhqirləri dayandırmağa və alicənablığını çoxlu sayda Fransa limanlarını açaraq faktlarla göstərməyə dəvət edirik".

Salvini Makronu Fransaya miqrant axınının keçdiyi Ventimilyedə qadın, uşaq və kişilərdən imtinaya son qoymağa çağırıb. Baş nazirin müavininin sözlərinə görə, əgər Fransa İtaliyanı bütün Avropa üçün qaçqın düşərgəsinə çevirmək istəyirsə, tamamilə yanılır.Salvininin mövqeyini ölkənin baş nazirinin ikinci müavini Luici Di Mayo da dəstəkləyib. O qeyd edib ki, İtaliyada hazırda miqrasiya ilə bağlı fövqəladə vəziyyət yaranıb və Fransa da bu vəziyyəti yaradanlardan biridir.

Çərşənbə günü France 2 telekanalına müsahibəsində Emmanuel Makron deyib ki, son aylar "Moskva gərginliyi Azərbaycanın xeyrinə qızışdırmaqla" məşğuldur. İtaliyanın Baş naziri Corca Meloni isə Fransa Prezidenti Emmanuel Makronun Almaniya Kansleri Olaf Şolts və Ukrayna Prezidenti Vladimir Zelenski ilə dünən Parisdə görüşməsini "uyğun olmayan dəvət" kimi qiymətləndirib.

Bir sözlə, görünən ondan ibarətdir ki, Fransa prezidenti E.Makronun yanlış və ermənipərəst siyasət aparması nəticəsində rəsmi Paris dünya birliyindən təcrid olunmaqdadır. Hətta ehtimallar var ki, Fransa bəzi beynəlxalq təşkilatlar tərəfindən cəzalandırılsın. Yeni AŞ PA, ATƏT kimi nüfuzlu beynəlxalq təşkilatların sıralarından xaric oluna bilər. Ən yaxşı halda isə səsvermə hüququndan məhrum olunar.

***İ.ƏLİYEV***

# Ştirlitsin həyat yoldaşı: 35 ildən sonra Bakıda tapdım

"Baharın on yeddi anı" filminin məşhur aktrisası Eleonora Şaşkova: Maksim Qorkinin qızı ilə evi axtarmağa getdik. Mən onu dərhal tapdım. Amma keçmiş mənzilimizdə heç kim cavab vermədi...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*












**Tatyana Lioznovanın əfsanəvi ”Baharın on yeddi anı” əsərinin bu günlərdə 50 yaşı tamam oldu. İlk dəfə olaraq ekranlarda film 1973-cü il avqustun 11-dən 24-dək nümayiş olundu və sadəcə bir kult deyil, həm təkcə Sovet kinosunda deyil, həm də dünya kinosu tarixində ən böyük filmlərdən birinə çevrildi. Müxtəlif hesablamalara görə, premyera günlərində filmə 70 milyona yaxın insan baxıb və 3 ay sonra - bu, heç vaxt belə olmayıb - yenidən nümayiş etdirilib.**

”Baharın on yeddi anı” filmində baş rol aktyoru, aktyor Vyaçeslav Tixonov da daxil olmaqla, müxtəlif illərdə rekord sayda SSRİ xalq artistləri çəkilib. Filmdəki ən təsirli səhnələrdən birinin- Ştirlitsin ”Elefant” kafesində həyat yoldaşı ilə görüşünün müəllifi məhz odur. Əvvəlcə bu epizod nə ssenaridə, nə də əsasında filmin ərsəyə gəldiyi Yulian Semenovun romanında yox idi. Səssiz bir tarix ideyasını aktyorun tanışı, gizli kəşfiyyat agenti təklif etdi və ona bənzər bir hekayə danışdı. Ekranda bir neçə dəqiqə davam edən bu sözsüz epizodik rol aktrisa Eleonora Şaşkova üçün ən çox tanınan rola çevrildi və o vaxtdan bəri onu ”Ştirlitsin həyat yoldaşı” adlandırırlar.

Maraqlıdır ki, bu romantik səhnənin iştirakçıları ayrı-ayrı günlərdə ayrı-ayrılıqda lentə alınıb və sonra montajın köməyi ilə birləşdirilib. Vyaçeslav Tixonov altı aydan sonra ilk istirahət gününü keçirdi, amma yenə də öz ”ekran arvadını” dəstəkləməyə gəldi. Bu barədə ”Moskva-Baku” portalına Eleonora Şaşkova məlumat verib. Aktrisa Bakı ilə bağlı təsirli uşaqlıq xatirələrini də bölüşüb:

- Mən Gürcüstanda anadan olmuşam və bir yaşıma kimi ailəm orada yaşayıb. 3,5 yaşım olanda Bakıya köçdük. Böyük Vətən Müharibəsi idi və atam sərhəd qoşunlarında xidmət edirdi. Çox balaca qız olsam da, ömrümün sonuna kimi Bakıda keçirdiyim vaxtı xatırladım. Bakıda kiçik kommunal mənzildə yaşayırdıq. Pəncərələri qalın, tünd bir şeylə pərdələləmək lazım idi və anam belə qalın bir yorğan tapdı, asmaq üçün ona ilmələr düzəltdi.

O, mənzil yoldaşı ilə səngər qazmağa gedirdi. Amma bir gün qayıtmadı, maşın gəlmədi və mən tək qaldım. Həmin axşam qapının zəngi çalındı. Cülbars adlı itimiz heç bir reaksiya vermədi. Qapıya yaxınlaşıb soruşdum ki, kim gəlib, məlum oldu ki, ərazi üzrə işləyən milisioner əmi gəlib. Dedi ki, pəncərəmizə pərdə vurulmayıb, artıq saat 21-dir, ətrafa işıq saçır. Qapını açdım, Culbarsı tanıyırdı, ona görə də dərhal otağa keçdi və pəncərəni necə pərdələdiyimizi soruşdu. Mən ona anamın düzəltdiyi yorğanı göstərdim. Milis əmi onu necə asa biləcəyimizi soruşdu. ”Masa elədir ki, onun üstünə çıxsam yıxılacaq” dedi. Milis özü hündürboy, dolğun (gülümsəyir), güclü bir dayı idi. Mən isə ona dedim ki, özüm asacağam. O, soruşdu ki, bəs necə asacaqsan, mən ona cavab verdim ki, kiçik stulumu stolun üstünə qoymalıyam. Və beləcə pəncərəni pərdələdim. Səhəri gün anam gəldi.

Azərbaycanı tərk edəndə mənim təxminən 5 yaşım var idi. O vaxta qədər o evdə yaşayırdıq, sonra atam Kişinyova köçürüldü və biz orada yaşamağa başladıq. Atam Böyük Vətən Müharibəsi illərində Rumıniyaya gəldi. Yadımdadır, Kral Mixay (Mixay I - Rumıniya kralı - red.) səlahiyyətlərini necə təslim etdi, taxtdan imtina etdi, atama hər yarım saatdan bir vuran divar saatı, həmçinin fars xalçası hədiyyə etdi.

Artıq yetkinlik çağında, mən artıq aktrisa olanda ”On üçüncü rəhbər” tamaşası ilə Vaxtanqov teatrımız Bakıya qastrol səfərinə getmişdi. Maksim Qorkinin nəvəsi Darya Peşkova ilə birlikdə gəzməyə qərar verdik. O, şəhəri gəzməyi təklif etdi. Mən də köhnə mənzilimə getməyi xahiş etdim və onu tapacağıma əmin idim.

Beləliklə, Darya Maksimovna ilə evi axtarmağa getdik. Mən onu dərhal tapdım. Dairəvi həyəti olan beş girişli bina idi, dərhal girişi tapdım, içəri girdik. Amma 5-ci mərtəbədə olan keçmiş mənzilimizdə heç kim cavab vermədi. Altıncı mərtəbəyə qalxdıq və orada çox gözəl bir xanım bizim üçün qapını açdı və bizi içəri dəvət etdi. Mən Darya Maksimovnaya necə yaşadığımızı göstərdim. Axı binadakı bütün mənzillər eyni idi. Ona görə də qonşu mənzillər mənim uşaqlığımda bizim mənzildə olduğu kimi otaqların eyni düzülüşünə sahib idilər: iki otaq, ortaq mətbəx (gülür). Beləliklə, 35 ildən sonra Bakıda köhnə evimizi tapdım, mənim üçün bu uşaqlıq xatirələrindən qalan real bir hal idi- çox məmnun oldum.

***Tərcümə - Elçin Bayramlı***



# “Ermənilərin yaşadığı ərazidə tərbiyəvi xarakterli addımlara ehtiyac var”

“Rusiya Quru qoşunları komandanının keçmiş müavini general-polkovnik Aleksandr Lentsovun Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən rus sülhməramlılarının komandanı vəzifəsindən uzaqlaşdırılacağı və onun yerinə general-mayor Kirill Kulakovun gətiriləcəyi barədə erməni KİV-də dərc olunan məlumatlar çox güman ki, yaxın günlərdə reallaşacaq. Cəmi 4 ay bu vəzifəni tutan döyüş generalının elə bir ciddi keçmişə malik olmayan hərbçi ilə əvəzlənməsinin əsas səbəbi nə ola bilər?”. Bunu ”Alyans” strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, general Lentsov bu vəzifəyə Laçın sərhəd buraxılış məntəqəsinin yaradılmasından bir neçə gün sonra təyin olunmuşdu/ ”Bu təyinat Rusiyanın sərhəd-buraxılış məntəqəsini bağlayacağına ermənilərdə müəyyən ümidlər yaratmışdı və onlar kifayət qədər ”şanlı” keçmişi olan generalın təyinatını bu amillə əlaqələndirmişdilər. Ermənilərin bu ümidlərini doğrultmaq üçün dərhal fəaliyyətə başlayan rus generalı Azərbaycan hakimiyyəti tərəfindən kəskin cavab aldıqdan sonra bu istiqamətdə fəallığını dayandırmış və sonrakı dövrdə ermənilərin digər ümidlərini də doğrultmaq üçün heç bir addım ata bilməmişdi. Nəticədə, Qarabağ erməniləri rus sülhməramlılarına qarşı etiraz tədbirlərinə başlamışdılar. General Lentsovun Kulakovla əvəz olunması ”əməliyyatının” bir səbəbinin bu amil olması tamamilə mümkündür.

Ancaq çox güman ki, əsas səbəb Ukrayna müharibəsində rusların düşdüyü ağır vəziyyət və son günlər bir neçə generalın öldürülməsi və vəzifədən uzaqlaşdırılmasıdır. Bu vəziyyətdə təcrübəli döyüş generalının Qarabağda rus sülhməramlılarının komandanı vəzifəsində saxlamaq və ondan ermənilərin etiraz tədbirlərinin qarşısının alınmasında istifadə etmək şübhəsiz ki, ağılsızlıqdır. Görünür məhz bu səbəbdən belə bir dəyişilkliyə getmək, general Lentsovu öz keçmiş vəzifəsinə, yaxud, daha məsul bir vəzifəyə qaytarmaq, onun yerinə isə hərbi məktəb rəisini təyin etmək qərara alınmışdır. Çünki bu gün Qarabağda, ermənilərin yaşadığı ərazidə hərbi məktəbdə olduğu kimi daha çox tərbiyəvi xarakterli addımlara ehtiyac var”.

***GÜLYANƏ***

SON SƏHİFƏ
SƏS
31 avqust
2023-cü il

# Azad olunmuş ərazilərdə turizmin inkişafı üçün hansı addımlar atılmalıdır?

## TURİZM EKSPERT DANIŞDI



“İşğaldan azad olunmuş Qarabağ ərazisində üç beynəlxalq hava limanı tikintisi həyata keçirilirdi. Onlardan artıq ikisi hazırdır və 2024-cü ilə qədər Laçında da beynəlxalq hava limanı tikintisində işlərin tamamlanması gözlənilir. Bu, özü də ölkə turizmi üçün müsbət bir şeydir. Beynəlxalq hava limanının olması hava daşıyıcılarının ora gələ bilməsinin göstəricisidir”. Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.

Onun sözlərinə görə, ümumiyyətlə, həmin ərazilər sovet dövründə də turistik ərazilər olub: ”İstirahət mərkəzləri, təbiəti, ekologiyası və digər resursları ilə turizm üçün yararlı olub.

İndi də turizmin inkişafı üçün işğaldan azad olunduğu vaxtdan bəri bir gün belə həmin ərazilərdə işlər dayanmayıb. İstər Kəlbəcər, istər Laçın, istərsə də Şuşa da mehmanxanaların təməli qoyulub və orada istirahət mərkəzlərinin olması nəzərdə tutulub. İlk növbədə onu qeyd etməliyik ki, 30 illik işğal müddətində Qarabağın əksər bölgələrində infrastruktur tamamilə sıradan çıxarılıb. Hətta bəzi yerlərdə evlərin sadəcə alt hissəsi qalıb. Evlər, yollar dağıdılıb, meşələr məhv edilib. Ciddi şəkildə zərər vurulmağına baxmayaraq Azərbaycan hazırda o ərazilərdə infrastruktur layihələri həyata keçirir. Bütün bu tikililər, ”ağıllı kənd” layihələri, yeni evlərin inşası, insanlarımızın ora tədricən köç edilməsi və s. gələcəkdə həmin ərazilərdə qaynar həyatın, gözəl turizm imkanlarının olacağından xəbər verir”.



”Düşünürəm ki, işğaldan azad olunmuş bölgələrdə turizmin inkişafı üçün təhlükəsizlik məsələləri tamamilə həll olunmalıdır. Bununla bağlı dayanmadan müəyyən işlər görülür. Bütün bu proseslər gələcəkdə turizmin inkişafını zəruri edəcək. Çünki bunun üçün kifayət qədər ehtiyatlar və ciddi potensial var. Sadəcə bu, biraz zaman tələb edir”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Üç qardaş ard-arda niyə intihar etdi?

*QAN DONDURAN HADİSƏ*

Türkiyənin məşhur televiziya proqramına müraciət edən Taha və Elif Sunkar 3 böyük qardaşlarının öldüyünü, 16 yaşlı kiçik qardaşları İsanın isə bibiləri Besime Sunkar tərəfindən qaçırıldığını iddia edib. Canlı yayıma qoşulan Besime Sunkar ”İsa mənim qaynımdır, amma ərim olacaq” deyib. Özünü öldürən digər qayınlar ilə bağlı şok təfərrüatlar ortaya çıxıb. Besime Sunkarın canlı yayımdakı inanılmaz ifadələrini təqdim edirik.

2016-cı ildə Halil Sunkarla ailə quran Besime Sunkar evliliyinin dördüncü ayında ərini itirib. Besime Sunkar ərinin ölümündən sonra qayınları ilə eyni evdə qalmağa davam edib. Qardaşının ölümündən sonra İsmayıl Sunkar da öz həyatına son qoyub və onun cansız cəsədi evin qarajında tapılıb. 18 gün sonra digər qardaş Musa Sunkar da intihar edib. Bütün baş verənlərdən sonra Besime Sunkarın ötən aprel ayında 16 yaşlı qaynı İsa Sunkarı avtomobilinin yük yerində qaçırdığı iddia edilib.




3 qardaşının ölümündə payı olduğu iddia edilən və İsa Sunkarı qaçıran Besime Sunkar iddialardan sonra canlı yayıma qoşulub. İntihar hadisələrində günahının olmadığını deyən Besime, ”İsa mənim qayınımdır, amma ərim olacaq. 17 onun, 28 də mənim yaşım var. Sevgi münasibətimizin olması normal qarşılanmaya bilər. Amma İsa məni qoruyacaq. Dul qadın olduğum üçün məni evləndirmək istədilər. 8 il mənə və oğluma dövlət baxdı, heç kim heç nə etmədi. Qardaşı, anası və atası tərəfindən İsanın ipdən asılmış fotosu paylaşıldı. İsmayıl və Musanın özünü öldürməsinin mənimlə heç bir əlaqəsi yoxdur. İsmayıl atası işləyərkən onunla mübahisə edib. Atası İsmayılın əlini tütək açarı ilə vurub sındırıb. Bu, ölməzdən bir həftə əvvəl baş verib. O, əlindəki tikişlərlə öldü. İsmayıl hər şeyi özü-özünə etdi”.

16 yaşlı qardaşlarının Besime Sunkar tərəfindən qaçırıldığını iddia edən qardaşlar, ”Qardaşlarımın üçü də Besimeyə görə öldü. Qardaşımızı Besimeyə yem etməyəcəyik. İsa ”Məni Besiməyə verməsəniz intihar edəcəyəm” deyərək özünü asdı” deyilib.

***Ayşən***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bakcell parkinq ödənişlərini sürətli etdi

***Bakcell şirkəti abunəçilərinə parkinq ödənişlərini sürətli ödəmək imkanı yaradıb. Artıq abunəçilər parkinq xidmətini mobil balansdan ödəyə biləcəklər. Xidmətin aktivləşdirilməsi, deaktiv edilməsi sms vasitəsilə həyata keçiriləcək. Üstəlik, sms pulsuzdur. Qiymətlər müəyyən edilmiş tariflərə uyğun olaraq, minimum 30 qəpikdən başlayır.***




Bakcell abunəçiləri avtomobilin qeydiyyat nişanı və parklanma məntəqəsinin nömrəsini 1181 qısa nömrəsinə SMS göndərərək parkinq zamanını başladacaqlar. Parkinqdən çıxarkən isə, ”stop” yazıb 1181 qısa nömrəsinə SMS göndərmək kifayətdir.

Korporativ abunəçilər isə ödənişi yalnız AzParking tətbiqi vasitəsilə, həyata keçirə bilərlər. Bakcell şirkəti ”Bakcell ilə ən sürətli ol” şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir. Xatırladaq ki, şirkət ”NEQSOL Holding”in tərkibinə daxildir.

# DİQQƏT: Meyvə və tərəvəzləri bu üsulla yuyun



Meyvə və tərəvəzləri sirkəli su ilə yumaq sağlamlıq üçün zərərli vərdişdir. SİA bu barədə Türkiyə mətbuatına istinadən xəbər verir.

Yeməkləri təbii üsullarla təmizləmək daha faydalı olsa da, alınan tərəvəz və meyvələrin sirkəli su ilə yuyulması bu baxımdan istisnadır. Meyvə və tərəvəz yetişdirilərkən pestisidlər onların səthi ilə təmasda olur. Bu pestisidlərin tərkibində pestisid adlanan kimyəvi maddə var. Pestisid normal şəraitdə su ilə yuyulduqda həll edilməli olan kimyəvi maddə olduğu halda, sirkəli su ilə təmasda pestisid kimyəvi tərkibinin 90 faiz zərərli və davamlı olmasına səbəb olur. Bədənə birbaşa qəbul edilən bu kimyəvi maddə böyrək və mədədə xəstəliklərə səbəb olur.

Bu vəziyyətə qarşı tədbir görmək üçün tərəvəz və meyvələrinizi turşulu su qarışığı olan sirkə suyu yerinə qazlı su ilə yumaqla özünüzü pestisid kimyəvi maddələrdən qoruya bilərsiniz.

***A. Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**